# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

23 dekabr 2025-ci il, çərşənbə axşamı
№ 234 (7061)
Qiymәti 60 qәpik




Milli azadlıqdan şirin nemət yoxdur!




# Prezident sərəncam imzaladı

Bax səh. 2

# Azərbaycan Avrasiyanın sabitlik və əməkdaşlıq mərkəzi kimi



Bax səh. 2

# Sülh prosesində yeni mərhələ

Bax səh. 3

# Zəfərdən quruculuğa: Prezident İlham Əliyevin liderlik missiyası

Bax səh. 3



## Strateji İşçi Qrupunun ilk iclası...

Cənubi Qafqaz regionunda formalaşan postmüharibə reallıqları Azərbaycanı yeni dövrdə beynəlxalq birliyin ən diqqətçəkən aktorlarından birinə çevirib. Geostrateji ərazidə təhlükəsizlik arxitekturası yaratması, iqtisadi əməkdaşlıq perspektivlərini gücləndirməsi, ən əsası isə qütblərarası, hətta sivilizasiyalararası münasibətlərin inkişafına verdiyi töhfə Azərbaycanın aparıcı güc kimi əhəmiyyətini artırıb. Nəticə etibarı ilə rəsmi Bakının bütün platformalar üzrə etibarlı tərəfdaş statusu daha da möhkəmlənib.

**Münasibətlər yeni mərhələdə**

Ölkəmiz dünyada meydana çıxan yeni çağırışlar fonunda beynəlxalq həmrəyliyin güclənməsinə davamlı töhfələr verir. Xoş mərama əsaslanaraq irəli sürdüyümüz təşəbbüslər dünya ölkələri və müxtəlif beynəlxalq təşkilatlar arasında körpülərin yaradılmasına, etimad mühitinin möhkəmlənməsinə, əlaqələrin intensivləşməsinə, sülhün və beynəlxalq təhlükəsizliyin daha da dərinləşməsinə xidmət edir. Həm çoxtərəfli, həm də ikitərəfli əlaqələrin...

Bax səh. 5

## Azərbaycan dövlətçilik diskursunda siyasi dilin leksik-semantik modeli

Bax səh. 5

## Yüz ilə sığmayan gün

Bax səh. 7

## Azərbaycan-Monteneqro: əməkdaşlığın yeni istiqamətləri

Bax səh. 5

## Dayanıqlı İnkişaf Məqsədləri üzrə yeni sistem

Azərbaycan və BMT arasında “Dayanıqlı İnkişaf Məqsədləri üzrə Milli İzləmə Sistemi”nin hazırlanması müzakirə edilib. İqtisadiyyat naziri Mikayıl Cabbarov bildirib ki, BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreyeva ilə görüşdə “2026-2030-cu illər üçün Dayanıqlı İnkişaf üzrə Əməkdaşlıq Çərçivəsi”nin icrası, Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) icrasının monitorinqinin gücləndirilməsi məqsədilə “DİM üzrə Milli İzləmə Sistemi”nin hazırlanması, regionlar üzrə DİM-lərin lokallaşdırılması fəaliyyətlərinin davam etdirilməsi və digər əməkdaşlıq məsələləri barədə fikir mübadiləsi aparılıb.

BMT ilə iqtisadi və sosial proqramlarda yaxın tərəfdaş olaraq iştirak edən Azərbaycan öz fəaliyyətində dayanıqlı inkişaf məqsədlərini hər zaman rəhbər tutaraq müasir qlobal inkişaf çağırışlarına töhfə verməyə çalışır. Bu çərçivəyə uyğun olaraq BMT-nin Davamlı İnkişaf...

Bax səh. 4

# Mayamidən sonra...



Bax səh. 7

# Genişmiqyaslı bir planın tərkib hissəsi

## “Siyasi qərarlar” “hüquqi nəticə” kimi təqdim edilirsə...



Bax səh. 4



# Azərbaycan Respublikasında 2026-cı ilin “Şəhərsalma və Memarlıq İli” elan edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycanda şəhərsalma və memarlıq ənənələrinin çoxəsrlik zəngin bir keçmişi vardır. İpək Yolu üzərində yerləşən və mühüm ticarət, sənətkarlıq, mədəniyyət mərkəzləri kimi Şərq ölkələri ilə sıx iqtisadi, siyasi və mədəni əlaqələr quran iri şəhərlərimizin özünəməxsus simasının formalaşmasında qiymətli memarlıq abidələri müstəsna rol oynamışdır.

Azərbaycan şəhərsalma və memarlıq sənətinin bariz nümunələri olub daim yüksək inkişaf səviyyəsinə görə seçilən tarixi şəhərlərimiz ötən dövrlərin memarlıq tendensiyalarına uyğun böyüyüb genişlənməklə bərabər, yerli mədəniyyətin əsas xüsusiyyətlərini qoruyub saxlamışdır.

Bu gün ölkə ərazisində dövlət tərəfindən mühafizə olunan müdafiə qalaları, karvansaralar, məscid, məbəd və türbələr milli memarlığın parlaq ənənələrini əks etdirir. Bədii-memarlıq həllinin kamilliyi baxımından iftixar hissi doğuran dünya əhəmiyyətli tarix və mədəniyyət abidələrindən Möminə xatun türbəsi, Xudafərin körpüsü, “Atəşgah” kompleksi və digər bu kimi misilsiz nümunələr Azərbaycanın memarlığının rəmzlərinə çevrilmişdir.

UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilmiş nadir sərvətlərimiz - qədim və orta əsrlərin şəhər mədəniyyətini özündə təcəssüm etdirən İçərişəhər və Şirvanşahlar sarayı kompleksi, əzəmətli ruhunu indiyədək qoruyan Qız Qalası, Şəkinin tarixi mərkəzi və Xan sarayı Azərbaycan şəhərsalma və memarlıq sənətinin dünya inciləri sırasında layiqli yer tutan yadigarlarıdır.

900 illiyi UNESCO çərçivəsində yubileyləri keçirilən böyük şəxsiyyətlər siyahısına daxil olunan qüdrətli sənətkar Əcəmi Naxçıvaninin Azərbaycan və Yaxın Şərq ölkələrinin orta əsrlər memarlığına güclü təsir göstərmiş yaradıcılığı dövrün memarlıq məktəbinin ən yüksək zirvəsidir.

Azərbaycan şəhərlərinin planlaşdırma quruluşunda və memarlıq tərzində artıq XIX əsrin ortalarına doğru müəyyən dəyişikliklər öz əksini tapmışdır. Sürətlə sənayeləşən Bakı şəhəri Şərq və Qərb memarlığının sintezində qədimliklə müasirliyin vəhdətindəki təkrarsız görkəmini məhz həmin vaxtlardan almağa başlamışdır.

Azərbaycan Respublikasında şəhərsalma və memarlıq fəaliyyətində milli ənənələrdən yaradıcı şəkildə istifadə olunmasına XX əsrdə xüsusi diqqət yetirilmişdir. Bu dövrdə bir sıra şəhərlər yenidən qurulmuş və onların əvvəlki siması dəyişmiş, bölgələrdə şəhərlərin planlaşdırılması önə çəkilmişdir. İki görkəmli memarın - Mikayıl Hüseynovun və Sadıq Dadaşovun fəaliyyətinin aparıcı yer tutduğu həmin dövr milli ənənələr zəminində yeni memarlıq üslubunun yaradılması ilə səciyyələnir.

Ümummilli Lider Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi illər Azərbaycan şəhərsalma və memarlığının inkişafında xüsusi mərhələ təşkil edir. Tarixən təşəkkül tapmış Azərbaycan şəhərlərinin və bütöv şəhərsalma sistemlərinin qorunması ilə bağlı bu illərdə Ulu Öndərin təşəbbüsü əsasında vacib qərarlar qəbul edilmiş, tədbirlər həyata keçirilmiş, şəhərlərdə memarlıq abidələrinin bərpası üzrə planlı iş aparılmış, memarlıq və şəhərsalma fəaliyyətinin davamlılığını təmin edən institusional təsisatlar qurulmuşdur.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra şəhər quruculuğu sahəsindəki yeni təzahürlər ölkədə inşa edilən monumental komplekslərin memarlıq həllində özünü qabarıq büruzə vermişdir. Ötən müddətdə dövrün qabaqcıl yanaşmalarını və milli təcrübələri əks etdirən layihələrin gerçəkləşdirilməsi sayəsində şəhərsalma sənətinin yüksək mənəvi-estetik təsir gücünə malik orijinal nümunələri yaradılmışdır. Mövcud möhtəşəm binalar sırasına daimi yeniləşmə rəmzi olan Heydər Əliyev Mərkəzi, Alov qüllələri kimi modern üslublu unikal memarlıq abidələrinin və Ağ şəhər kompleksinin əlavə edilməsi ilə paytaxtın mənzərəsi daha da zənginləşmiş, regionların memarlıq siması xeyli dəyişərək yeni şəkil almışdır.

Bu gün də Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf strategiyasında paytaxt və regionların tarazlı inkişafının təmin edilməsi və dayanıqlı məskunlaşmanın təşviqi, Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədlərinə uyğunluqlar təsbit edilməklə, memarlıq və şəhərsalma fəaliyyətinin prioritet istiqamətləri olaraq müəyyənləşdirilmişdir.

Ermənistanın işğal etdiyi və otuz il ərzində viran qoyduğu ərazilərimizdə 44 günlük Vətən müharibəsindəki Zəfərin ardınca innovativ yanaşmaların tətbiqi ilə həyatı yenidən canlandıran genişmiqyaslı bərpa-quruculuq işləri Azərbaycan dövlətinin memarlıq və şəhərsalmaya müfəssəl baxışını aydın nümayiş etdirir. Böyük Qayıdışa dair I Dövlət Proqramına müvafiq qaydada “yaşıl enerji” zonası elan edilmiş bu ərazilərdə 2020-2025-ci illərdə - dünya memarlıq-inşaat təcrübəsində az rast gəlinən qısa bir müddətdə 100-dən artıq yaşayış məntəqəsi, o cümlədən 12 şəhər üzrə planlaşdırma sənədləri hazırlanmış və quruculuq işlərinə başlanılmışdır. Azərbaycanın mədəniyyət paytaxtı, xalqımızın qürur mənbəyi Şuşa şəhərinin əvvəlki memarlıq mühiti və əsl tarixi siması bərpa edilməklə dirçəldilməsi isə milli iradənin təzahürüdür.

Ölkəmiz iqlim dəyişmələri və şəhərsalma ilə əlaqədar qlobal çağırışların həllində, innovativ yanaşmaların formalaşmasında etibarlı tərəfdaş kimi tanınır. BMT nin Məskunlaşma Proqramı (“UN-Habitat”) ilə birgə təşəbbüslər və bu çərçivədə memarların bir araya gəldiyi milli şəhərsalma forumları Azərbaycanın beynəlxalq tərəfdaşlarla ortaq fəaliyyətinin uğurlu nümunəsidir. BMT-nin Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyasının (WUF13) 2026-cı ildə Bakı şəhərində keçirilməsi qərarı Azərbaycanın dayanıqlı şəhərsalma proseslərində artan rolunu göstərir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycanın çoxəsrlik tarixə malik şəhərsalma və memarlıq mədəniyyəti ənənələrinin yaşadılması, eləcə də ölkədə bu sahədə yeni çağırışlara cavab verən mütərəqqi yanaşmaların təşviqi və tətbiqinin genişləndirilməsi məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasında 2026-cı il “Şəhərsalma və Memarlıq İli” elan edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasında 2026-cı ilin “Şəhərsalma və Memarlıq İli” elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 22 dekabr 2025-ci il**

# Prezidenti təbrik edirlər...

Azərbaycan Prezidenti İlham Əliyevin ad günü münasibətilə dövlət və hökumət başçıları, beynəlxalq təşkilatların rəhbərləri, tanınmış ictimai - siyasi xadimlər təbrik məktubu ünvanlayıb. Türkmən xalqının Milli Lideri, Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov, Xorvatiya Respublikasının Prezidenti Zoran Milanoviç, Rusiya Federasiyası Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov, ABŞ-Azərbaycan İnteqrasiya Mərkəzinin rəhbəri Samir Novruzov, Britaniya Azərbaycan Cəmiyyətinin rəhbəri və “Qarabağ” məktəbinin təsisçisi Fəridə Pənahova, “Azİz” İsrail-Azərbaycan Beynəlxalq Assosiasiyasının sabiq prezidenti Lev Spivak, Türkiyədə fəaliyyət göstərən Dərincə Azərbaycan Evi Dərnəyinin sədri Volkan Aydəmir, Avstraliya Azərbaycan Assosiasiyaları Alyansının prezidenti Fuad Aydınbəyzadə, Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova, Türk Dünyası Mediatorlar Birliyinin İdarə Heyətinin sədri Yakup Erikel, Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsinin sədri baş müfti şeyx Ravil Qaynutdin, Finlandiya Azərbaycanlıları Assosiasiyasının həmsədrləri Vasif Muradlı və Arzu Oqtay, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisinin Baş katibi Asəf Hacıyev, Niderland Krallığında fəaliyyət göstərən Avro-Atlantik Azərbaycanlıları Tərəfdaşlıq Şurasının baş katibi Sahil Qasımov, Gürcüstandakı “Azərbaycan Evi”nin direktoru Məhəbbət İmanov, Kanadada fəaliyyət göstərən “Az Media Group”un rəhbəri Yaşar Pur Əli və başqaları Azərbaycan Prezidentini təbrik edib, gələcək fəaliyyətində uğurlar diləyiblər.

# Azərbaycan Avrasiyanın sabitlik və əməkdaşlıq mərkəzi kimi

## Bakı daim strateji tərəfdaşlıq xəttinin inkişafını dəstəkləyir

Yerləşdiyimiz coğrafiya müasir beynəlxalq münasibətlər sistemində qlobal proseslərin əsas mərkəzlərindən biri kimi çıxış edir. Qlobal güclər arasında gedən iqtisadi, siyasi və geosiyasi rəqabət fonunda Avrasiyada yeni əməkdaşlıq konfiqurasiyaları formalaşır, klassik ittifaqlar, yeni əməkdaşlıq platformaları öz funksionallığını daha da artırır, həm ikitərəfli, həm də çoxtərəfli əlaqələrin qurulmasına töhfələr verir. Məhz bu mürəkkəb və çoxşaxəli proseslər fonunda Azərbaycanın oynadığı rol xüsusi ilə diqqət çəkir. Bakı artıq təkcə regional deyil, Avrasiya miqyasında strateji əhəmiyyətə malik əməkdaş dövlət statusunu möhkəmləndirib.

Azərbaycanın qlobal proseslərə verdiyi töhfələr yalnız coğrafi mövqeyi ilə məhdudlaşmır. Son illər həyata keçirilən müstəqil və balanslaşdırılmış xarici siyasət kursu ölkəmizi müxtəlif siyasi-iqtisadi platformalarda etibarlı tərəfdaş kimi tanıdıb. Xüsusilə 2020-ci ildə Vətən müharibəsində əldə olunan tarixi Qələbə və sonrakı antiterror tədbirləri Avrasiyanın mərkəzində tamamilə yeni reallıqlar yaradıb. Bu reallıqlar təkcə təhlükəsizlik baxımından deyil, eyni zamanda azad ticarət, nəqliyyat və enerji əməkdaşlığı imkanlarının genişlənməsi baxımından da mühüm əhəmiyyət daşıyır.

Tarixi İpək yolunun əsas qollarından birinin üzərində yerləşən Azərbaycan əsrlər boyu Avrasiyada əlaqələrin möhkəmlənməsinə töhfə verib. Bu missiya bu gün də davam etdirilir. İstər MDB məkanında, istərsə də Avrasiya iqtisadi və siyasi platformalarında Azərbaycanın iştirakı əməkdaşlıq gündəliyinin formalaşmasına real təsir göstərir. Qeyd edildiyi kimi, ölkəmiz həm ikitərəfli, həm də çoxtərəfli formatlarda etibarlı tərəfdaş kimi çıxış edir və bu yanaşma regional sabitliyə xidmət edir. Azərbaycan daim müzakirələrə açıq dövlət  kimi şöhrət qazanıb - Bakı hər zaman müzakirə masalarında aktiv rol alır, müzakirə edilən problemlərin həllində əsaslı rol oynamağa çalışır. Vurğulandığı kimi, Bakı daim istər MDB, istərsə də digər platformalarda keçirilən görüşlərdə iştirak edib.

Azərbaycan üzv dövlət kimi MDB-nin rəsmi Zirvə görüşlərində mütəmadi olaraq iştirak edir və ikitərəfli əlaqələrin inkişafına mühüm əhəmiyyət verir.

Yeri gəlmişkən, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dekabrın 21-də Rusiyanın Sankt-Peterburq şəhərində keçirilmiş Ali Avrasiya İqtisadi Şurasının iclasında və MDB dövlət başçılarının bu gün keçiriləcək qeyri-rəsmi Zirvə görüşündə iştirak etməməsinin səbəbləri açıqlanıb. Prezident Administrasiyasından AZƏRTAC-a bildirilib ki, Azərbaycan Avrasiya İqtisadi İttifaqına üzv olmadığına görə Prezident İlham Əliyev Ali Avrasiya İqtisadi Şurasının dekabrın 21-də keçirilmiş iclasında iştirak etməyib.

Dövlətimizin başçısı bu gün (dünən - red) MDB dövlət başçılarının Sankt-Peterburq şəhərində keçiriləcək qeyri-rəsmi Zirvə görüşündə isə iş qrafikinin sıxlığına görə iştirak edə bilməyəcək.

Xatırladaq ki, Azərbaycan Respublikası üzv dövlət kimi MDB-nin rəsmi Zirvə görüşlərində mütəmadi olaraq iştirak edir və MDB çərçivəsində əməkdaşlığa, o cümlədən üzv dövlətlərlə ikitərəfli əlaqələrin inkişafına mühüm əhəmiyyət verir.

Prezident İlham Əliyev bu il oktyabrın 9-10-da Tacikistanın Düşənbə şəhərində keçirilmiş MDB Dövlət Başçıları Şurasının iclasında iştirak edib. İclas çərçivəsində istər ikitərəfli, istərsə də çoxtərəfli müstəvidə keçirilmiş görüşlər səmərəli olub.

## Azərbaycan MDB məkanında etibarlı və fəal tərəfdaşdır

Qeyd edildiyi kimi, Azərbaycan Respublikası üzv dövlət kimi MDB-nin rəsmi Zirvə görüşlərində mütəmadi olaraq iştirak edir və bu platforma çərçivəsində əməkdaşlığın dərinləşdirilməsinə xüsusi önəm verir. MDB Azərbaycanın xarici siyasətində mühüm yer tutan regional əməkdaşlıq mexanizmlərindən biridir. Bakı bu platformanı formal iştirak meydanı deyil, praktik nəticələrə hesablanmış əməkdaşlıq aləti kimi qiymətləndirir.

MDB-yə üzv dövlətlərlə Azərbaycanın iqtisadi əlaqələri dinamik inkişaf mərhələsindədir. Ticarət dövriyyəsinin artması, birgə investisiya layihələri, sənaye və kənd təsərrüfatı sahələrində əməkdaşlıq bu münasibətlərin real məzmununu təşkil edir. Eyni zamanda, siyasi dialoq da ən yüksək səviyyədə qurulub. Dövlət başçıları, hökumət üzvləri və parlamentlərarası təmaslar münasibətlərin institusional əsaslarını daha da möhkəmləndirir.

Azərbaycan MDB məkanında sabitlik və qarşılıqlı hörmət prinsiplərinə əsaslanan əməkdaşlığın tərəfdarı kimi çıxış edir. Ölkəmiz heç bir bloklaşma siyasətinə qoşulmadan, suverenlik və milli maraqlar əsasında münasibətlər qurur. Bu yanaşma MDB çərçivəsində Azərbaycanın mövqeyini daha da gücləndirir və Bakını dialoq təşəbbüslərinin irəli sürüldüyü mərkəzlərdən birinə çevirir. Enerji, nəqliyyat, humanitar sahələrdə həyata keçirilən birgə layihələr isə bu əməkdaşlığın uzunmüddətli xarakter daşıdığını təsdiqləyir.





## Bakı Avrasiyada yeni nizamın əsas tənzimləyicilərindən biridir

Bakının fəaliyyət müstəvisi Avrasiyada da yalnız MDB məkanı ilə məhdudlaşmır - qlobal miqyasda baş verən geosiyasi dəyişikliklər fonunda Azərbaycan Avrasiyada formalaşan yeni nizamın əsas tənzimləyici aktorlarından biri kimi çıxış edir. Azərbaycanın malik olduğu logistika imkanları bu prosesdə həlledici rol oynayır. Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən ölkəmiz Avrasiyanın iqtisadi xəritəsində strateji tranzit mərkəzinə çevrilib. İstər su yolu, istər müasir dəmir yolu və avtomobil magistralları, rəqəmsal gömrük sistemləri Azərbaycanın tranzit potensialını daha da artırır. Bu infrastruktur təkcə iqtisadi deyil, həm də siyasi əhəmiyyət daşıyır. Çünki nəqliyyat və logistika təhlükəsizliyi artıq qlobal siyasətin əsas komponentlərindən birinə çevrilib. Azərbaycan bu sahədə etibarlı tərəfdaş kimi tanınır.

Enerji təhlükəsizliyi sahəsində Azərbaycanın oynadığı rol isə Avrasiya üçün xüsusi önəm kəsb edir. Xəzər hövzəsinin enerji resurslarının dünya bazarlarına çıxarılmasında Bakı aparıcı mövqedədir. Cənub Qaz Dəhlizi kimi strateji layihələr Azərbaycanın regional və qlobal enerji təhlükəsizliyinə verdiyi töhfənin bariz nümunəsidir. Bu amil Bakının siyasi çəkisini artırmaqla yanaşı, Avrasiyada qarşılıqlı asılılığa əsaslanan əməkdaşlıq modelini gücləndirir.

## Dialoq, tərəfdaşlıq və qarşılıqlı fayda prinsiplərinə sadiqlik

Bütün dünya Azərbaycanın yaratdığı bu mənzərəni həm görür - həm ortada olan imkanlardan yararlanır, həm də fəaliyyətimizi yüksək dəyərləndirir. Qlobal məkanın gənc, amma qətiyyəti, birlik və həmrəylik təşəbbüsləri ilə seçilən bir üzvü olaraq Azərbaycanın yeni beynəlxalq əlaqələr sisteminin humanizm, ədalət və beynəlxalq hüquq prinsipləri əsasında qurulması cəhdləri dəstəklənir. Çoxtərəfliliyin təşviqi, regional, hətta qlobal maraqları, dəyərləri qorumağı özündə ehtiva edən siyasi gündəm Azərbaycanın ətrafında böyük bir dostluq masası formalaşdırır. Bu isə Azərbaycanla qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan tərəfdaşlıq münasibətlərinin də coğrafi miqyasını genişləndirir -  beynəlxalq münasibətlər sisteminin aparıcı dövlətləri Azərbaycanın illərdir yürütdüyü dürüst, beynəlxalq hüquqa söykənən və ədalətə əsaslanan siyasətini təqdir edir.

Bütün bu reallıqlar onu deməyə əsas verir ki, Azərbaycan Avrasiyanın iqtisadi-siyasi xəritəsində mühüm əməkdaş dövlət statusunu qəti şəkildə möhkəmləndirib. Azərbaycanın həyata keçirdiyi xətt müxtəlif siyasi və iqtisadi mərkəzlər arasında körpü rolunu oynamağa imkan verir. Bu yanaşma həm regional sabitliyə, həm də Avrasiya məkanında qarşılıqlı etimada əsaslanan yeni əməkdaşlıq modelinin formalaşmasına xidmət edir. Bakı dialoq, tərəfdaşlıq və qarşılıqlı fayda prinsiplərinə sadiq qalmaqla Avrasiyanın gələcək inkişaf trayektoriyasının müəyyənləşməsində mühüm söz sahibi olaraq qalır.

*Pərviz SADAYOĞLU*

# Zəfərdən quruculuğa: Prezident İlham Əliyevin liderlik missiyası












Dekabrın 22-də “Konstitusiya və Suverenlik İli” çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) və Azərbaycan Memarlıq və İnşaat Universitetinin birgə təşkilatçılığı ilə “Zəfərdən quruculuğa: Prezident İlham Əliyevin liderlik missiyası” adlı tədbir keçirilib.

Tədbirdən öncə Universitet ərazisində müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin büstü ziyarət olunaraq əziz xatirəsi ehtiramla yad edilib.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Çıxış edən Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru, professor Gülçöhrə Məmmədova diqqətə çatdırıb ki, dövlət idarəçiliyində liderin rolu təkcə inkişafın təmin olunması ilə məhdudlaşmır, eyni zamanda, cəmiyyətdə sabitliyin möhkəmlənməsi və milli tərəqqinin davamlı xarakter alması baxımından mühüm əhəmiyyət kəsb edir: “Xalqa verdiyi sözlərə sadiqliyini əməli fəaliyyəti ilə təsdiqləyən, hər bir azərbaycanlının Prezidenti olduğunu sübut edən cənab İlham Əliyevin fəaliyyəti ölkəmizin gücünün daha da artmasına yönəlmiş ardıcıl strateji xətt üzərində qurulub. Dövlət başçısı Azərbaycanın inkişafını təmin etməklə xalqın dərin etimadını qazanıb. Milli maraqları daim prioritet hesab edən dövlət başçısının siyasəti xalqımızın birliyini daha da möhkəmləndirib”.



G.Məmmədova vurğulayıb ki, dövlət başçısının düşünülmüş siyasəti ölkənin sosial-iqtisadi inkişafında, eləcə də milli maraqların qorunmasında öz ifadəsini tapır: “Uğurlu daxili və xarici siyasət nəticəsində Azərbaycan dünyada nüfuzlu dövlət, tolerantlıq nümunəsi, mühüm beynəlxalq tədbirlərin keçirildiyi etibarlı tərəfdaş kimi tanınır”.

Dövlət başçısının təhsilin inkişafını daim diqqət mərkəzində saxladığını vurğulayan rektor ölkədə həyata keçirilən uğurlu gənclər siyasətinin də müasir Azərbaycanın gələcəyinə xidmət etdiyini söyləyib.

YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov çıxışında qeyd edib ki, qüdrətli və qalib Azərbaycan reallığı xalqımızın Ümummilli Lideri Heydər Əliyevin əbədiyaşar ideyaları və tükənməz dövlətçilik irsi ilə bağlıdır: “Ulu Öndərin milli maraqlara əsaslanan uzaqgörən siyasəti Azərbaycanın müstəqil dövlət kimi tərəqqisini təmin edib. Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev Ümummilli Liderin dövlətçilik irsini müasir dövrün çağırışlarına uyğun zənginləşdirərək uğurlu siyasət həyata keçirməklə ölkəmizə tarixi nailiyyətlər qazandırıb”.

Tahir Budaqov bildirib ki, Prezident İlham Əliyevin liderliyi ilə Azərbaycan öz iqtisadi, siyasi, hərbi gücü və xalqımızın əzmkar mövqeyi sayəsində möhtəşəm Zəfərə imza atıb: “Ölkəmizin ərazi bütövlüyü və tam suverenliyinin bərpası Heydər Əliyev ideyalarının təntənəsi, Prezident İlham Əliyevin qətiyyətli siyasətinin, diplomatik məharətinin real nəticəsidir. Şübhə yoxdur ki, Heydər Əliyev ideyalarına sadiq qalaraq məqsədyönlü siyasət həyata keçirən, xalqın inam və etimadını doğruldan və ata vəsiyyətini şərəflə yerinə yetirən, sözünün imzası qədər dəyərli olduğunu hər zaman təsdiq edən qətiyyətli Lider - Prezident İlham Əliyev Azərbaycanı daha parlaq gələcəyə aparacaq, xalqımıza yeni zəfərlər bəxş edəcəkdir”.

Sonra çıxış edənlər Ulu Öndər Heydər Əliyevin zəngin dövlətçilik irsi və Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində qazanılan uğurlardan bəhs ediblər.

Tədbirdə Yeni Azərbaycan Partiyasının sıralarına yeni qəbul olunmuş Universitet əməkdaşlarına üzvlük vəsiqələri təqdim edilib.

Daha sonra Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

Sonda bədii hissə təqdim olunub və xatirə şəkli çəkdirilib.

# Sülh prosesində yeni mərhələ

## Nikol Paşinyan Azərbaycan Prezidentinə təşəkkür edib

Ermənistanın Baş naziri Nikol Paşinyan Sankt-Peterburqda keçirilən Ali Avrasiya İqtisadi Şurasının iclasında Prezident İlham Əliyevə yüklərin Azərbaycan ərazisindən Ermənistan istiqamətində tranzitinin açılması və ikitərəfli ticarətin başlanması üçün şəraitin yaradılması ilə bağlı qəbul edilən qərara görə təşəkkürünü bildirib. Ermənistanın hökumət başçısı qarşılıqlılıq və bərabərhüquqluluq prinsipləri, habelə suverenlik və milli yurisdiksiyalar əsasında ticarət-logistika əməkdaşlığının inkişaf perspektivlərini qeyd edib. Onun sözlərinə görə, baş verən müsbət və konstruktiv dəyişikliklər bu böyük regionun bütün ölkələri üçün yeni imkanlar yaradır, iqtisadi dayanıqlığın möhkəmləndirilməsinə və regional kommunikasiyaların genişlənməsinə töhfə verir.

Avrasiyada tranzit daşımaları baxımından son dərəcə əlverişli coğrafi yerləşməyə malik Cənubi Qafqaz ötən əsrin doxsanıncı illərinin əvvəllərindən etibarən təxminən 30 il ərzində Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq siyasətinə görə müharibə rikləri və təhdidlərlə üz -üzə qalıb. Təbii ki, belə vəziyyət regional əməkdaşlığa da ciddi əngəllər yaradırdı. Yalnız Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı parlaq Qələbə sayəsində Cənubi Qafqazda əməkdaşlıq və inkişaf üçün yeni reallıqlar formalaşdı. Yaranmış fürsətlərdən re-

### Qalib Azərbaycanın təşəbbüsü ilə başlayan normallaşma prosesi

gionun rifahı naminə istifadə edilməsi üçün isə ilk növbədə sülh və etimad quruculuğu prosesinə başlanılması zəruri idi. Qalib Azərbaycan da Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsinə uyğun olaraq məhz belə konstruktiv mövqe ortaya qoydu. Dövlətimizin başçısı ölkəmizin qalib statusuna rəğmən, heç bir ilkin şərt irəli sürmədən qanlı müharibə səhifəsini bağlamaq və gələcəyə baxmaq təşəbbüsü ilə çıxış etdi. Müharibə başa çatandan sonra Azərbaycan beynəlxalq hüquq normalarını və prinsiplərini əsas götürməklə hazırladığı 5 bəndlik sülh paketini qarşı tərəfə ünvanladı. Burada əksini tapan müddəalar sonradan yekun sülh sazişi sənədinin hazırlanmasında baza kimi əsas götürüldü. Əlbəttə, 5 il ərzində sülyaratma prosesinin rəvan şəkildə irəlilədiyi fikrini ifadə etmək mümkün deyil. Məhz Ermənistan hakimiyyətinin, məğlub ölkədəki revanşist qüvvələrin və regional maraqlarının təmin olunmasına çalışan bəzi xarici güclərin manipulyativ davranışları səbəbindən bütövlükdə sülh prosesi ləng irəlilədi. Bir neçə platformada aparılan danışıqlar prosesi iflasa uğradı.



Ancaq sonda yenə də Azərbaycanın qətiyyəti sayəsində sülh prosesini irəli aparmaq və nəticə əldə etmək mümkün oldu. Belə ki, yekun sülh sazişinin bütün bəndləri ikitərəfli qaydada razılaşdırıldı və cari il avqustun 8-də Vaşinqtonda ABŞ, Azərbaycan və Ermənistan liderlərinin iştirakı ilə iki ölkənin xarici işlər nazirləri sənədi parafladılar. Həmin görüşdə əldə olunan razılaşmaya uyğun olaraq təxminən otuz il ərzində səmərəsiz fəaliyyət göstərən Minsk qrupu artıq tarixin arxivinə qovuşub. Bütün bunlar o deməkdir ki, keçmiş Dağlıq Qarabağ münaqişəsi beynəlxalq gündəlikdən tamam çıxarılıb və Ermənistan da daxil olmaqla bütün dünya Azərbaycanın 44 günlük Vətən müharibəsinin və 23 saatlıq lokal xarakterli antiterror əməliyyatının nəticələrinə uyğun yaratdığı reallıqları tam şəkildə qəbul edir. Beləliklə də, postmüharibə dövründə respublikamızın təşəbbüsü ilə başlayan proseslərin nəticəsində hazırda Azərbaycan və Ermənistan heç vaxt olmadığı qədər sülhə yaxındırlar.

Sülh prosesində kommunikasiyaların blokdan çıxarılması çox mühüm məqamdır. Vaşinqtonda aparılan müzakirələrin ən mühüm nəticələrindən biri də regionda kommunikasiyaların blokdan çıxarılmasının razılaşdırılmasıdır. Bununla bağlı liderlərin imzaladığı Birgə Bəyanatda konkret müddəalar yer alıb. Belə ki, Vaşinqtonda TRIPP marşrutunun (Zəngəzur dəhlizinin) yaradılması razılaşdırılıb. Bu marşrutla Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında maneəsiz nəqliyyat bağlantısının

### İlk və ən mühüm nailiyyətlərdən biri

yaradılması Prezident İlham Əliyevin dəfələrlə qeyd etdiyi kimi, ölkəmizin milli, tarixi və gələcək maraqlarına tam cavab verir. Zəngəzur dəhlizi (TRIPP marşrutu ) fəaliyyətə başladıqdan sonra həm Naxçıvanın blokadasına son qoyulacaq, həm də Azərbaycanın tranzit imkanları daha da genişlənəcək.

Zəngəzur dəhlizinin (TRIPP marşrutunun) yaradılması Ermənistan üçün də həyati əhəmiyyət daşıyır. Belə ki, Zəngəzur dəhlizinin (TRIPP marşrutunun ) yaradılması ilə Ermənistanla Türkiyə arasında məlum səbəblərdən bağlı olan sərhədlər açılacaq və bu ölkənin Avropaya asan çıxışı təmin olunacaq. Bütövlükdə, yeni marşrut optimal regional bağlantını təmin edəcək. O cümlədən Mərkəzi Asiya dövlətləri üçün yeni tranzit imkanları açılacaq. Rusiya və İranın Şimal-Cənub marşrutundan asılılığı azalacaq.

Qalib Azərbaycan sülhə çağırışlarını praktiki müstəvidə atdığı real addımlarla təsdiqləyir. Regionda kommunikasiyaların blokdan çıxarılmasına, Zəngəzur dəhlizinin (TRIPP marşrutunun) yaradılmasına qətiyyətli siyasi iradə göstərən Azərbaycan öz ərazisindən Ermənistan üçün tranzit imkanları yaratması bunun əyani təsdiqidir. Qeyd edək ki, artıq ölkəmizin ərazisindən Ermənistana Rusiya və Qazaxıstan taxılının ilk həcmləri çatdırılıb. Eləcə də respublikamızdan qonşu ölkəyə neft məhsullarının ixracı həyata keçirilib. Ermənistanın Baş naziri Azərbaycanın qərarlarını yüksək dəyərləndirdiyini bildirərək vurğulayıb: “... Yüklərin Azərbaycan ərazisindən Ermənistan istiqamətində tranzitinin açılması, eləcə də ikitərəfli ticarətin başlanması üçün şəraitin yaradılması barədə qərara görə Azərbaycan Respublikasının Prezidentinə minnətdarlığımı bildirirəm. Bu, regionda sülhün və sabitliyin bərqərar olunması çərçivəsində əldə edilmiş ilk və ən mühüm nailiyyətlərdən biridir”.

***Mübariz ABDULLAYEV***



# Strateji İşçi Qrupunun ilk iclası...

## ABŞ regionda Azərbaycanı əsas tərəfdaş kimi qəbul edir

*Nardar BAYRAMLI*

Cənubi Qafqaz regionunda formalaşan postmüharibə reallıqları Azərbaycanı yeni dövrdə beynəlxalq birliyin ən diqqətçəkən aktorlarından birinə çevirib. Geostrateji ərazidə təhlükəsizlik arxitekturası yaratması, iqtisadi əməkdaşlıq perspektivlərini gücləndirməsi, ən əsası isə qütblərarası, hətta sivilizasiyalararası münasibətlərin inkişafına verdiyi töhfə Azərbaycanın aparıcı güc kimi əhəmiyyətini artırıb. Nəticə etibarı ilə rəsmi Bakının bütün platformalar üzrə etibarlı tərəfdaş statusu daha da möhkəmlənib.

**Münasibətlər yeni mərhələdə**

Ölkəmiz dünyada meydana çıxan yeni çağırışlar fonunda beynəlxalq həmrəyliyin güclənməsinə davamlı töhfələr verir. Xoş məramə əsaslanaraq irəli sürdüyümüz təşəbbüslər dünya ölkələri və müxtəlif beynəlxalq təşkilatlar arasında körpülərin yaradılmasına, etimad mühitinin möhkəmlənməsinə, əlaqələrin intensivləşməsinə, sülhün və beynəlxalq təhlükəsizliyin daha da dərinləşməsinə xidmət edir. Həm çoxtərəfli, həm də ikitərəfli əlaqələrin inkişafına xüsusi önəm verən Azərbaycanın bu geniş diapazonlu fəaliyyəti dünyanın aparıcı dövlətləri tərəfindən də təqdir olunur. Bu gün rəsmi Bakı ilə strateji təmasların gücləndirilməsi istiqamətində atılan addımlar bunu təsdiqləyir. Xüsusi olaraq qeyd edilməlidir ki, bu məsələ güc mərkəzlərinin də gündəliklərində ən aktual prioritet kimi göstərilir. Dünyanın aparıcı güc mərkəzi kimi xarakterizə olunan ölkələr Azərbaycanla əlaqələrin inkişafında maraqlı olduqlarını irəli sürürlər. Azərbaycan da bu münasibətin qarşılığında hər zaman dostluq və işgüzar əməkdaşlıq əlaqələrinin daha da dərinləşdirilməsi üçün səy göstərir.




Avqustun 8-də Vaşinqtonda əldə edilmiş razılaşmalar, imzalanmış sənədlər də dövlətimizin nüfuzunun göstəricisidir. Donald Trampın yenidən dövlət başçısı seçilməsi ilə ABŞ - Azərbaycan münasibətləri yeni mərhələyə qədəm qoyub. Son dövrlərdə daha yüksək temp qazanan əməkdaşlıq əlaqələri bu mənada, xüsusi qeyd edilməlidir. Bəlli olduğu kimi, rəsmi Vaşinqton dünyanın iqtisadi-siyasi nəbzini formalaşdıran mühüm güc mərkəzlərindən biri sayılır. Nəhəng iqtisadiyyata, müqayisəyəgəlməz siyasi çəkiyə malik olan bu dövlətin son proseslərdə Cənubi Qafqaza, xüsusilə Azərbaycana diqqət yetirməsi bir sıra mətləblərdən xəbər verir.

Məsələ ondadır ki, ABŞ Prezidenti Donald Tramp Cənubi Qafqazda məhz Azərbaycanı özünün strateji tərəfdaşı seçərək keçmiş administrasiyanın yanlış siyasətini düzəltməyə çalışır. Azərbaycan Prezidenti İlham Əliyevin irəli sürdüyü təşəbbüslər ABŞ üçün olduqca cəlbedicidir. Bu təşəbbüslərin əsasında əməkdaşlıq, iqtisadi inkişaf, qitələrin ticarət əlaqələrini asanlaşdırmaq və ümumilikdə dünya iqtisadiyyatının inkişafına təkan verən pozitiv layihələr dayanır. ABŞ Azərbaycanı təsadüfən özünün strateji tərəfdaşı seçməyib. Dünya siyasətində aparıcı rol oynayan Amerika geosiyasi üstünlüyü müharibə və münaqişələrlə deyil, "yumşaq güclə" əldə etməyə çalışır. Onun sərmayəsi və siyasi dəstəyi hər bir qlobal xarakterli məsələdə həlledici rola malikdir.

**Strateji İşçi Qrupunun iclasında nələr müzakirə olunub?**

Münasibətlərin yeni mərhələyə qədəm qoymasını şərtləndirən bir sıra faktlara da diqqət yetirək. Xatırladaq ki, avqustun 8-də Vaşinqtonda Azərbaycan və ABŞ liderləri tərəfindən Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Anlaşma Memorandumunu imzalanıb. Sənədə əsasən tərəflər Strateji İşçi Qrupunda 3 sahəyə diqqət yönəltmək niyyətindədir . Birincisi, enerji, ticarət və tranzit daxil olmaqla regional bağlantılardır. İkincisi, süni intellekt və rəqəmsal infrastruktur daxil olmaqla iqtisadi sərmayələr, üçüncüsü isə müdafiə məhsullarının satışı və terrorizmə qarşı mübarizə daxil olmaqla təhlükəsizlik sahəsində əməkdaşlıqdan ibarətdir.

Yeri gəlmişkən, dekabrın 19-da Azərbaycan və Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması üzrə Strateji İşçi Qrupunun onlayn formatda tam tərkibdə ilk iclası keçirilib. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən verilən məlumata görə, Strateji İşçi Qrupa Azərbaycan tərəfdən xarici işlər nazirinin müavini Elnur Məmmədov, ABŞ tərəfdən Dövlət katibinin köməkçisinin müavini Sonata Koulter rəhbərlik edib.

İclas zamanı avqustun 8-də Vaşinqton Sülh Sammiti çərçivəsində iki dövlət arasında imzalanmış Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması üzrə Anlaşma Memorandumu çərçivəsində prioritet elan edilmiş enerji, ticarət və tranzit daxil olmaqla regional bağlantılar, süni intellekt və rəqəmsal infrastruktur daxil olmaqla iqtisadi sərmayə, eləcə də müdafiə, təhlükəsizlik və terrorla mübarizə kimi sahələrdə ikitərəfli əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivləri müzakirə edilib.

Avqustun 8-dən sonra qeyd edilən sahələr üzrə ayrı-ayrılıqda aparılmış ikitərəfli təmaslar və müzakirələr yüksək qiymətləndirilib. Bu və digər mühüm sahələrdə qarşılıqlı faydalı əməkdaşlıq istiqamətlərini müəyyən edəcək Strateji Tərəfdaşlıq Xartiyasının mətni üzrə fikir mübadiləsi aparılıb və sənədin qısa müddət ərzində razılaşdırılmasının əhəmiyyəti vurğulanıb. Eləcə də, Strateji İşçi Qrupunun növbəti iclasının tarixləri və gündəliyi barədə razılıq əldə edilib.

**TRIPP layihəsi regionun gələcəyi üçün faydalıdır**

Bütün bunlar göstərir ki, ABŞ-ı regiona cəlb edən əsas amillər Azərbaycan Prezidentinin həyata keçirdiyi sülh, sabitlik, dostluq, iqtisadi inkişaf və sosial rifah siyasətidir. Prezident İlham Əliyevin Zəngəzur dəhlizini reallığa çevirmək istəyinin də arxasında qlobal əməkdaşlıq dayanır. Bu əməkdaşlıq dəhliz boyu yerləşən dövlətlərin iqtisadi inkişafına böyük töhfələr verəcək. Ona görə də, TRIPP layihəsi də regionun gələcəyi üçün çox faydalıdır və strateji önəm daşıyır. Bütün bunların fonunda ABŞ-ın Azərbaycana münasibəti hər iki tərəfin maraqlarına uyğundur.

# Genişmiqyaslı bir planın tərkib hissəsi

## "Siyasi qərarlar" "hüquqi nəticə" kimi təqdim edilirsə...

### Avropa Parlamenti "yalan və böhtan" platforması rolunda

*Nardar BAYRAMLI*

Avropa Parlamenti Azərbaycana qarşı qərəzli mövqeyini davam etdirir. 44 günlük Vətən müharibəsindən sonra bu təşkilat tərəfindən ölkəmizə qarşı qəbul edən qətnamələrin sayı-hesabı yoxdur. Avropa Parlamenti dövlətimizin öz ərazilərini işğaldan azad etməsini, Qarabağ üzərində öz suverenliyini təmin etməsini, erməni separatizminin kökünü kəsməsini həzm edə bilmir. Dekabrın 18-də təşkilatın ölkəmizin əleyhinə qəbul etdiyi növbəti qətnamə də bunun göstəricisidir.

Qətnamədə Azərbaycanda guya insan haqlarının pozulduğu, 400 nəfər "siyasi məhbus" olduğu iddia edilir. Eləcə də, müharibə cinayətləri törədən ermənilərin həbs edilməsi də siyasiləşdirilir. Əslində, bütün bunlar cəfəngiyyatdan başqa bir şey deyil.

**AP kimlərin əlində alətə çevrilib?**

Bu gün Avropa dəyərlərinin aşınmaya məruz qalması təəssüf doğurur. Avropa təsisatları yarandıqları zaman xüsusilə beynəlxalq hüquq, insan haqları və demokratiya kimi prinsipləri əsas götürüblər. Lakin həmin təşkilatların fəaliyyətində bu prinsiplərə riayət olunmur. Bu təşkilatlar hazırda beynəlxalq güclərin və lobbilərin diqtəsi ilə işləyir. Yəni, fundamental dəyərlər onlar üçün arxa plana keçirilib. Avropa Parlamentinin qəbul etdiyi qətnamələr də bunun sübutudur. Avropa Parlamenti kimi islamofob və türkəfob dairələrin əlində alət olan qurumların qəbul etdiyi sənədlərin heç bir hüquqi qüvvəsi yoxdur. Bu təşkilat hər zaman insan hüquqları və demokratiya pərdəsi altında Azərbaycanı hədəfə alıb. Nəzərə alaq ki, Ermənistanın 30 illik işğalı dövründə Avropa Parlamenti bu ölkənin işğalçı siyasətini pisləyən, 1 milyona qədər azərbaycanlı qaçqın-köçkünün hüquqlarını müdafiə edən sənədlər qəbul etməyib. Amma indi bu qurum Ermənistanla əməkdaşlığa böyük önəm verir, hazırda həbsdə olan erməniəsilli müharibə canilərini müdafiə edir.

Avropa xalqlarının problemləri, qarşılaşdıqları çağırışlarla məşğul olmaq əvəzinə, Avropa Parlamenti artıq tam şəkildə Azərbaycanofob, islamofob, şovinist və irqçi qüvvələrin "qanuni" təmsilçisinə çevrilib. Bu gün ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə qarşı aparılan indiki kampaniya Avropa Parlamentinin riyakarlığı və ikiüzlülüyü ilə yanaşı, Azərbaycana qarşı birmənalı şəkildə hücuma keçdiyini göstərir. Əslində, Avropa Parlamentinin son qətnaməsi Azərbaycanın Ermənistan üzərində qələbə qazanmasından, ərazi bütövlüyünü bərpa etməsindən doğan "qəzəbin" təzahüründən başqa bir şey deyil. Görünür, son zamanlar Ermənistanla Azərbaycan arasında vasitəçilərin iştirakı olmadan keçirilən danışıqlar, yüksəksəviyyəli təmaslar, 8 avqust Vaşinqton razılaşması Avropa Parlamentini məyus edir. Təşkilat indiki mövqeyi ilə sülh prosesinə zərbə vurmağa çalışır.

**Milli Məclis: Korrupsiya və rüşvətxorluq AP-da kök salıb**

Məlumdur ki, Avropa Parlamentinin qərəzli qətnaməsi ilə əlaqədar Milli Məclis də bəyanat qəbul edib. Bəyanatda vurğulandığı kimi, yalan məlumatlar və saxta iddialar üzərində qurulan, konkret cinayət əməllərinə siyasi don geyindirən bu sənəd qanunun aliliyinə kölgə salmaq və məhkəmə proseslərinə kobud müdaxilə etmək üçün göstərilən növbəti uğursuz cəhddir.

Görünən odur ki, anti-Azərbaycan ritorikasından əl çəkə bilməyən Avropa



Parlamenti bir daha siyasi riyakarlıq nümayiş etdirərək, insan hüquqları kimi önəmli mövzudan öz gizli gündəliyi və təxribatçı məqsədləri üçün istifadəyə davam edir. Avropa Parlamentinin siyasi simasının bir sıra xarakterik cizgiləri Azərbaycanla yanaşı, bu qurumun əsassız və cəfəng ittihamları ilə üzləşmiş çoxsaylı ölkələrə də yaxşı məlumdur. Bu qətnamə Avropa Parlamentinin əsl mahiyyətini ortaya qoyur və onun real niyyətlərini ifşa edir. "Korrupsiya və rüşvətxorluğun Avropa Parlamentində dərin kök saldığını göstərən çoxsaylı faktların aşkar edilməsi bu mənfi tendensiyanın həmin qurumun gündəlik fəaliyyətinin mərkəzində dayandığını sübut edir. Müxtəlif maraq dairələrinə ödənişli xidmətlər göstərən Avropa Parlamentinin qətnamələri də, bir qayda olaraq, əldə edilən maddi mənfəətin əvəzi rolunu oynayır",-deyə bəyanatda vurğulanıb.

Qeyd edilib ki, müəyyən proseslərə ardıcıl surətdə səlibçilik mövqeyindən yanaşan Avropa Parlamenti islamofob və türkofob meyillərin aşkar ifadə olunduğu platformaya çevrilib. İslam və Türk dünyasının ayrılmaz parçası olan Azərbaycana qarşı bu cür qərəzli hücumlar Avropada eyni tendensiyaları idarə edən müəyyən qrupların əlavə siyasi dividend qazanmaq niyyətini açıq büruzə verir. Avropa Parlamentinin bu qətnaməsinin geniş miqyaslı bir planın tərkib hissəsi olduğu da şübhəsizdir. "Nəticə etibarilə, bütün qeyd edilənləri nəzərə alaraq qətiyyətlə söyləmək olar ki, Avropa Parlamenti növbəti dəfə öz məkrli niyyətlərini heç bir əsası olmayan, birtərəfli və yalan iddialar üzərində qurulmuş arqumentlərlə pərdələməyə çalışır. Azərbaycan Respublikasının Milli Məclisi bir daha Avropa Parlamentinin məlum qətnaməsini qətiyyətlə rədd edir və onu qəbulolunmaz hesab edir. Belə qətnamələr Azərbaycana heç bir şəkildə təsir edə və ölkəmizi öz yolundan döndərə bilməz",-deyə Milli Məclis bəyan edib.

**Avropa Azərbaycan Mərkəzi Avropa Parlamentinə etiraz edib**

Qeyd edək ki, Almaniyada fəaliyyət göstərən Avropa Azərbaycan Mərkəzi də Avropa Parlamentinin ölkəmizə dair qəbul etdiyi qətnamə ilə bağlı bəyanat yayıb. Bəyanatda qətnamənin beynəlxalq hüququn fundamental prinsipləri ilə ziddiyyət təşkil ediyi, Azərbaycanın suveren hüquqlarına və milli yurisdiksiyasına hörmətə əsaslanan əməkdaşlıq ruhuna xələl gətirdiyi, Avropa Parlamentinin institusional etibarlılığına ciddi suallar yaratdığı qeyd olunub.

Bəyanatda BMT Nizamnaməsinin prinsiplərinə uyğun olaraq, hər bir dövlətin öz ərazisində ictimai asayişin, konstitusiya quruluşunun və milli təhlükəsizliyin qorunması məqsədilə qanunvericiliyini tətbiq etmək, cinayət təqibini aparmaq və məhkəmə ədalət mühakiməsini həyata keçirmək səlahiyyətinə malik olduğu vurğulanaraq, Avropa Parlamentinin konkret işlər üzrə "hüquqi nəticə" kimi təqdim etdiyi qənaətlərin faktiki olaraq, məhkəmə qərarlarını siyasi qərarlarla əvəzləmək cəhdi təsiri bağışladığı və qəbuledilməz olduğu bildirilib. Bu cür sənədlərin insan hüquqları mövzusunu hüquqi dialoq predmetindən çıxararaq siyasi təzyiq alətinə çevirməklə, həm insan hüquqları gündəliyinin obyektivliyinə zərbə vurduğu, həm də tərəflər arasında etimadın institusional əsaslarını sarsıtdığı qeyd edilib. Eləcə də Azərbaycanın ifadə azadlığı və əsas hüquqlarla bağlı beynəlxalq öhdəliklərinə hörmətin tərəfdarı olduğu vurğulanıb, Avropa Parlamentinin Azərbaycanla bağlı yanaşmasında uzun illərdir selektivlik və ikili standartlar faktının müşahidə olunduğu qeyd edilib. Bu baxımdan, regionda beynəlxalq hüququn kobud şəkildə pozulduğu dövrlərdə, o cümlədən humanitar nəticələr, məcburi köçkünlərin hüquqları, mədəni irsə vurulmuş ziyan, bu gün də davam edən mina təhlükəsi kimi məsələlərdə ardıcıl və prinsipial mövqe ortaya qoymayan bir institutun Azərbaycanın daxili hüquqi prosesləri barədə qərəzli mühakimələr yürütməsinin ciddi etimad böhranı yaratdığı diqqətə çatdırılıb.

"Azərbaycan tərəfdaşlıq münasibətlərini yalnız suverenliyə hörmət, daxili işlərə qarışmama və ikili standartlardan imtina çərçivəsində məqbul hesab edir. Bu səbəbdən Avropa Parlamentini və Aİ-yə üzv dövlətləri Azərbaycanla bağlı ritorikanı və praktikanı beynəlxalq hüququn tələblərinə uyğunlaşdırmağa, faktlara əsaslanmayan siyasi etiketləmələrdən imtina etməyə və dialoqu təxribatçı qətnamələr üzərindən deyil, hüquqi çərçivələr və konstruktiv institusional kanallar vasitəsilə aparmağa çağırırıq", - deyə bəyanatda vurğulanıb.

# Dayanıqlı İnkişaf Məqsədləri üzrə yeni sistem



Azərbaycan və BMT arasında "Dayanıqlı İnkişaf Məqsədləri üzrə Milli İzləmə Sistemi"nin hazırlanması müzakirə edilib. İqtisadiyyat naziri Mikayıl Cabbarov bildirib ki, BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreyeva ilə görüşdə "2026-2030-cu illər üçün Dayanıqlı İnkişaf üzrə Əməkdaşlıq Çərçivəsi"nin icrası, Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) icrasının monitorinqinin gücləndirilməsi məqsədilə "DİM üzrə Milli İzləmə Sistemi"nin hazırlanması, regionlar üzrə DİM-lərin lokallaşdırılması fəaliyyətlərinin davam etdirilməsi və digər əməkdaşlıq məsələləri barədə fikir mübadiləsi aparılıb.

BMT ilə iqtisadi və sosial proqramlarda yaxın tərəfdaş olaraq iştirak edən Azərbaycan öz fəaliyyətində dayanıqlı inkişaf məqsədlərini hər zaman rəhbər tutaraq müasir qlobal inkişaf çağırışlarına töhfə verməyə çalışır. Bu çərçivəyə uyğun olaraq BMT-nin Davamlı İnkişaf Məqsədləri ailəsində yer alan və daim öz iqtisadi hədəflərini həmin prioritetlərin gerçəkləşməsinə fokuslayan ölkəmiz insan inkişafı üçün son dərəcə əhəmiyyətli imkanların yaradılmasına, bu istiqamətdə uğurlu sosial layihələrin icrasına nail olub.

**Minilliyin İnkişaf Məqsədləri strategiyasında uğurlu nəticə**

Azərbaycan BMT-nin də ali hədəf siyasətinə cavab verən Minilliyin İnkişaf Məqsədləri strategiyasına qoşularaq 2015-ci ildən indiyə qədər insan inkişafı ilə bağlı əlavə tədbirləri və keyfiyyətli həyat standartlarının tətbiqini icra edib. Nəticədə ölkəmizdə yoxsulluğun aradan qaldırılması və iqtisadi artımın təmin edilməsinə yönələn strategiyalarla əlaqəli şəkildə həyata keçirilən siyasət öz müsbət bəhrəsini verib. Təhsil, sosial müdafiə və məşğulluq imkanları da daxil olmaqla geniş spektrli sosial ehtiyacların ödənilməsi səviyyəsi yaxşılaşıb. Tərəqqi naminə gücləndirilmiş qlobal həmrəylik ruhunda, sosial baxımdan aztəminatlı təbəqənin ehtiyaclarına ayrıca diqqət yetirərək dayanıqlı inkişaf üçün qlobal tərəfdaşlığın yenidən canlandırılması və tələb olunan vasitələrin səfərbər edilməsi istiqamətində əlavə tədbirlər davam etdirilir.

Respublikamız iqtisadiyyatın milli inkişafını nəzərdə tutduğu hədəf göstəricilərinə tam çatmağa nail olub. Eyni zamanda, həmin konsepsiyada üzərinə götürdüyü digər bir mühüm prioritetə - 2020-ci ilədək Dünya Bankının (DB) adambaşına düşən Ümumi Milli Gəlir təsnifatına görə "yuxarı orta gəlirli ölkələr"arasında tamhüquqlu ölkə olması, habelə BMT-nin İnkişaf Proqramının İnsan İnkişafı ilə bağlı təsnifatına əsasən "yüksək insan inkişafı" ölkələri qrupunda yuxarı sıralara yüksəlməsi hədəfinə də çatıb.

**DİM hesabatında yüksək göstərici**

BMT-nin "Dayanıqlı İnkişaf 2022" hesabatında isə ölkəmiz 5 pillə irəliləyərək mümkün 100 baldan 73,5 toplayıb və Azərbaycan dünyanın 163 ölkəsi arasında "davamlı inkişaf məqsədləri (DİM) indeksi" üzrə 50-ci yerdə qərarlaşıb. Bu göstəriciyə görə respublikamız Cənubi Qafqaz regionunda (Gürcüstan 51-ci yer, Ermənistan 66-cı yer) liderdir və dünya üzrə hər üç ölkədən ikisini geridə qoyur. Müqayisə üçün demək olar ki, Şərqi Avropa və Mərkəzi Asiya regionunda bu indeks üzrə orta göstərici 71,6-dır ki, bu da Azərbaycanın göstəricisindən aşağıdır.

Hesabatda ölkəmiz yaxşı səhiyyə və rifah, keyfiyyətli təhsil, yoxsulluğa son, təmiz su və sanitariya, davamlı şəhərlər və icmalar, məsuliyyətli istehsal və istehlak, iqlim dəyişikliyinə qarşı mübarizə və torpaq ekosisteminin mühafizəsi məqsədləri üçün tərəfdaşlıq kimi Davamlı İnkişaf Məqsədləri üzrə irəliləyişə nail olub. Hesabatda müəyyən edilmiş altməqsədlərə gəldikdə isə, qiymətləndirilən 83 məqsəddən 35-də irəliləyiş əldə edilib (qismən və ya nəzərəçarpacaq), 7-si üzrə isə DİM məqsədlərinə çatılıb.

Hər bir ölkənin fəaliyyəti digər ölkələrin DİM-lərə nail olmaq imkanlarına müsbət və ya mənfi təsir göstərə bilər. Bu təsirləri müəyyən etmək üçün hesabatda eyni zamanda "yayılma və ya təsir indeksi" də hesablanır ki, bu da üç istiqamət üzrə qiymətləndirilir: ekoloji və sosial təsirlərin beynəlxalq ticarətdə təcəssümü, iqtisadiyyat və maliyyə, təhlükəsizlik. Bu qiymətləndirmə üzrə Azərbaycanın göstəricisi 97,3 olub ki, bu da ölkəmizin digər ölkələrin DİM-lərə nail olmaları istiqamətində daha çox müsbət və daha az mənfi təsirlərə səbəb olduğunu göstərir.

Hazırda isə 17 məqsəd və 169 hədəfdən ibarət "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik" strateji sənədinə əsasən, Azərbaycan digər yeni həyat keyfiyyətlərinin təmin edilməsini qarşıya məqsəd qoyub.

**"Gündəlik-2030" - yeni hədəflərin yol xəritəsi**

"Gündəlik-2030"dan irəli gələn vəzifələr dayanıqlı inkişaf üzrə yeni milli strategiyaların, proqramların və fəaliyyət planlarının hazırlanmasını, yüksək keyfiyyətli, aktual, etibarlı və daha müfəssəl məlumatların əldə olunması məqsədilə statistika potensialının gücləndirilməsini, milli şərait və prioritetlərə uyğun olaraq vətəndaş cəmiyyəti, dövlət və özəl sektor, habelə digər maraqlı tərəflərin cəlb edilməsi ilə dayanıqlı inkişaf sahəsində tərəqqinin əldə olunmasına tam imkan yaradır.

Azərbaycanın inkişaf siyasətinin əsas hissələrindən biri "yaşıl enerji"yə keçiddir və bu strateji çağırışa uyğun olaraq 2026-cı ilə kimi elektrik enerjisi istehsalı sahəsində bərpaolunan enerjinin payınım 24 faizə, 2030-cu ilə kimi 30 faizə çatdırılması nəzərdə tutulur. Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələrə əsasən Azərbaycan istixana effekti yaradan qaz emissiyalarının həcmini 40 faiz azaltmağı qarşısına məqsəd qoyub. Bununla yanaşı, Qarabağ və Şərqi Zəngəzuru xalis sıfır emissiya zonasına çevirilməsi hədəflənib. BMT ilə bu sahədə etibarlı tərəfdaşlığın möhkəmlənməsi bu istiqamətdə mühüm nailiyyətlərin əldə edilməsinə öz töhfəsini verəcək.

*E.CƏFƏRLİ*

# Azərbaycan dövlətçilik diskursunda siyasi dilin leksik-semantik modeli: Heydər Əliyev və İlham Əliyevin çıxışları əsasında

Azərbaycan tarixində dil heç vaxt sadəcə ünsiyyət vasitəsi olmayıb. Dil hər zaman dövlətçilik düşüncəsinin, milli kimliyin və siyasi iradənin əsas ifadə forması olub. Bu baxımdan Ulu Öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin çıxışlarına diqqət yetirdikdə, siyasi dilin necə sistemli və məqsədyönlü şəkildə qurulduğunu aydın görürük.

Ümummilli Lider Heydər Əliyevin siyasi dilində politologiya, diplomatiya və ölkədə mövcud hərbi-siyasi proseslərlə bağlı terminoloji leksika mühüm yer tutur. Bu leksik fonda politologiya elminə aid anlayışlar, diplomatik terminlər, siyasi təşkilatların ad və qısaltmaları, eləcə də antroponim və toponimlər sistemli şəkildə təmsil olunur. Politoloji terminlər Heydər Əliyevin həm sovet dövründə formalaşmış siyasi baxışlarını (kommunist, bolşevik, beşillik, Ali Sovet və s.), həm də 1990-cı illərdə müstəqil Azərbaycan dövlətinin quruculuğu mərhələsində işlətdiyi leksik vahidləri (hüquqi cəmiyyət, beynəlxalq aləm, aparıcı qüvvələr, siyasi partiyalar və s.) əhatə edir.

Heydər Əliyevin dilində diplomatiyaya aid terminlər də geniş şəkildə təmsil olunur və bu terminlər onun beynəlxalq münasibətlər sistemində fəal siyasi xadim kimi çıxış etdiyini göstərir. Bu leksik qatın əsasını attaşe, bərabərhüquqlu, beynəlxalq hüquq, de-fakto, de-yure, diplomat, diplomatik addım, diplomatik əlaqə, diplomatik korpus, diplomatik missiya, diplomatik münasibətlər, diplomatik nümayəndəlik kimi terminlər təşkil edir. Sözügedən terminlər Ulu Öndərin beynəlxalq hüquq normalarına əsaslanan, dövlətin suverenliyini və milli maraqlarını qorumağa yönəlmiş siyasi diskursunun dil vasitəsilə ifadəsidir.

Heydər Əliyevin siyasi dilində çoxmənalılıq da diqqəti cəlb edir. Məsələn, "vətəndaşlıq" anlayışı onun nitqlərində həm insanla dövlət arasında hüquqi münasibətlər sistemi kimi, həm də mənəvi-əxlaqi keyfiyyətləri ifadə edən anlayış kimi işlədilmişdir. Yaxud "təminat" termini bir tərəfdən sosial-iqtisadi məzmun daşıyaraq əhalinin maddi təminatı, sosial müdafiəsi anlamında işlədilir, digər tərəfdən isə siyasi və hüquqi kontekstdə zəmanət, etibarlılıq və təhlükəsizlik amili kimi çıxış edir.  Onun siyasi dili leksik-semantik baxımdan zəngin olmaqla yanaşı, çoxmənalılıq xüsusiyyəti ilə də səciyyələnir. Bu isə Ümummilli Liderin siyasi nitqini yalnız inzibati idarəetmə dili deyil, dövlətçilik fəlsəfəsini ifadə edən konseptual diskurs səviyyəsinə yüksəldir.



Ulu Öndər Heydər Əliyevin siyasi dilində politologiya, diplomatiya və ölkədə mövcud hərbi-siyasi proseslərlə bağlı terminoloji leksika mühüm yer tutur. Bu leksik fonda politologiya elminə aid anlayışlar, diplomatik terminlər, siyasi təşkilatların ad və qısaltmaları, eləcə də antroponim və toponimlər sistemli şəkildə təmsil olunur (Bax: Xədicə Heydərova. Heydər Əliyevin siyasi dilinin lüğəti. Bakı: "Elm və təhsil", 2023, 272 səh.). Heydər Əliyevin siyasi nitqlərində formalaşan bu terminoloji sistem dilin yalnız ünsiyyət vasitəsi deyil, dövlət idarəçiliyinin və siyasi düşüncənin elmi əsaslarla ifadə forması olduğunu göstərir. Məhz bu yanaşma Prezident İlham Əliyevin Azərbaycan Milli Elmlər Akademiyasının 80 illiyinə həsr olunmuş çıxışında vurğuladığı kimi, dilin dövlətçilik düşüncəsinin ayrılmaz tərkib hissəsi olması ideyasının tarixi əsaslarını təşkil edir.

Heydər Əliyevin siyasi dilinin əsas xüsusiyyətlərindən biri uzaqgörənlik semantikasıdır. Onun nitqlərində qələbə anlayışı emosional çağırış kimi deyil, zamanla və siyasi hazırlıqla əlaqələndirilir. "Zəmin", "şərait", "tədbirlər planı", "strateji məqsəd" kimi leksik vahidlər bu diskursun əsasını təşkil edir. Heydər Əliyevin siyasi dilində Qarabağ məsələsi xüsusi yer tutur. O, çıxışlarında torpaqların itirilməsi faktını müvəqqəti vəziyyət kimi təqdim edir və bu məsələnin həllini tarixi zərurət kimi dəyərləndirirdi. Bu yanaşma xalqın kollektiv şüurunda məğlubiyyət psixologiyasının dərinləşməsinin qarşısını almışdır. Məhz bu siyasi dil nəticəsində Azərbaycan dövləti dağılmaq təhlükəsindən xilas edilmiş, münaqişənin genişlənməsi dayandırılmış və gələcək qələbə üçün real siyasi, iqtisadi və hərbi zəmin hazırlanmışdır. Heydər Əliyevin nitqlərində formalaşan bu ideoloji xətt sonradan real tarixi nəticələrini vermişdir. Onun siyasi dilində qurulan ideoloji xətt Prezident İlham Əliyevin fəaliyyətində praktik reallığa çevrilmişdir. 2020-ci ildə 44 günlük Vətən müharibəsində əldə edilən tarixi qələbə və 2023-cü ilin sentyabrında həyata keçirilən lokal antiterror tədbirləri bu siyasi varisliyin ən bariz təzahürləridir.

İlham Əliyevin çıxışlarında Heydər Əliyevin siyasi dilində formalaşmış "qayıdış", "ədalət", "tarixi haqq" anlayışları artıq tarixi fakt kimi təqdim olunur. Bu, siyasi dilin idarəetmə və strateji planlaşdırma aləti olduğunu bir daha təsdiqləyir. Belə ki, Ali Baş Komandanın dilində dövlətçilik anlayışı mərkəzi yer tutur. "Müstəqillik", "suverenlik", "ərazi bütövlüyü", "milli maraqlar", "dövlət təhlükəsizliyi", "konstitusion əsaslar" kimi terminlər onun çıxışlarında ardıcıl şəkildə işlədilir. Xüsusilə Qarabağ mövzusu ilə bağlı çıxışlarında bu leksik vahidlər hüquqi və tarixi əsaslarla təqdim olunur. Prezidentin 2020-ci il Vətən müharibəsindən sonrakı çıxışlarında "tarixi ədalət", "beynəlxalq hüquq", "BMT Təhlükəsizlik Şurasının qətnamələri" anlayışları siyasi arqumentin əsas dayağı kimi çıxış edir (Zəfər müraciətləri, 2020).

Prezident İlham Əliyevin siyasi dilinin mühüm qatını hüquqi terminologiya təşkil edir. "Hüquqi dövlət", "qanunun aliliyi", "konstitusiya islahatları", "institusional inkişaf", "idarəetmə mexanizmləri" kimi terminlər onun siyasi nitqlərində elmi dəqiqliklə işlədilir. Bu xüsusiyyət onun siyasi diskursunu emosional ritorikadan fərqləndirərək rasional-hüquqi əsaslı idarəetmə modeli kimi təqdim edir. Bu leksik qat xüsusilə iqtisadi və inzibati islahatlara həsr olunmuş çıxışlarda (regional inkişaf proqramlarının təqdimatı, 2004-2023) aydın müşahidə olunur.

İlham Əliyevin siyasi dilində diplomatik terminologiya geniş yer tutur. "Beynəlxalq hüquq", "bərabərhüquqlu əməkdaşlıq", "strateji tərəfdaşlıq", "enerji təhlükəsizliyi", "regional sabitlik", "çoxtərəfli əməkdaşlıq" kimi anlayışlar onun xarici siyasət diskursunun əsasını təşkil edir. Prezidentin beynəlxalq forumlardakı çıxışlarında (BMT Baş Assambleyası, Münhen Təhlükəsizlik Konfransı, Davos İqtisadi Forumu) diplomatik dil normativ hüquq və real siyasi maraqların sintezi kimi təqdim olunur.

Prezident İlham Əliyevin siyasi dilinin mühüm istiqamətlərindən biri də dil və milli kimlik məsələləridir. Azərbaycan Milli Elmlər Akademiyasının 80 illiyinə həsr olunmuş çıxışında Prezident açıq şəkildə vurğulamışdır ki, "Azərbaycan dilinin saflığının qorunması milli varlıq məsələsidir" (AMEA, 3 noyabr 2025). Bu yanaşma dilin sırf filoloji obyekt deyil, azərbaycançılıq ideologiyasının əsas sütunu kimi dərk edildiyini göstərir. Prezidentin 2018-ci il "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilinin tətbiqinin daha da təkmilləşdirilməsi haqqında" sərəncamı da bu diskursun hüquqi ifadəsidir.

İlham Əliyevin çıxışlarında "xalq-dövlət birliyi", "milli həmrəylik", "sosial ədalət", "inkişaf modeli", "gələcəyə baxış" kimi anlayışlar xüsusi yer tutur. Bu leksika siyasi lider-xalq münasibətlərini ideoloji müstəvidə möhkəmləndirir. Xüsusilə müharibə və postmüharibə dövründə Prezidentin müraciətlərində bu anlayışlar milli səfərbərlik və kollektiv məsuliyyət ideyasını gücləndirən dil vasitələri kimi çıxış edir (Xalq müraciətləri, 2020-2023).

Prezident İlham Əliyevin siyasi dilinin diqqətçəkən xüsusiyyətlərindən biri elmi terminologiyaya verdiyi önəmdir. Onun çıxışlarında anlayışların semantik dəqiqliyi qorunur, terminlər kontekstindən kənarlaşdırılmadan işlədilir. AMEA-dakı çıxışında elmi terminlərin, xüsusilə dilçilik və humanitar sahələrə aid anlayışların sistemli və məsuliyyətlə işlədilməsi tələbi irəli sürülür. Bu yanaşma siyasi dilin elmlə qarşılıqlı əlaqədə inkişaf etdiyini göstərir.

İlham Əliyevin çıxışlarında rəsmi-institusional diskursla yanaşı, situativ şəkildə kolloquial (danışıq üslublu) elementlər də aktivləşir; "Nə oldu, Paşinyan?", "cəhənnəmə getdi status", "dovşan kimi qaçdı", "iti qovan kimi qovduq" kimi ifadələr siyasi ritorikada strateji xəlqiləşdirmə vasitəsi olaraq qarşı tərəfin diskursiv nüfuzunu zəiflətməyə və ictimai emosional konsolidasiyanı gücləndirməyə xidmət edir.

Beləliklə, Prezident İlham Əliyevin siyasi dili dövlətçilik, hüquq, diplomatiya, milli kimlik və elmi diskursun sintezindən ibarət kompleks bir sistemdir. Bu sistem Heydər Əliyevin formalaşdırdığı siyasi dil modelinin müasir dövrdə davamı olmaqla yanaşı, qloballaşma və beynəlxalq münasibətlər şəraitində yeni semantik qatlarla zənginləşdirilmişdir. İlham Əliyevin siyasi dili Azərbaycan dövlətçiliyinin ideoloji sabitliyini və strateji inkişaf xəttini dil müstəvisində təmin edən əsas amillərdən biridir.

***Xədicə Heydərova,***
***filologiya üzrə fəlsəfə doktoru, dosent***
***AMEA Nəsimi adına Dilçilik İnstitutu,***
***Azərbaycan dili tarixi şöbəsinin müdiri***

# Azərbaycan-Monteneqro: əməkdaşlığın yeni istiqamətləri

## Tərəflər qarşılıqlı iqtisadi-ticari və investisiya mübadilələrini artırmaq niyyətindədir

Azərbaycan və Monteneqro arasında yaxın tərəfdaşlıq münasibətlərinin son illərdə inkişafı yüksələn templə davam etməkdədir və hər iki ölkənin dövlət başçılarının qarşılıqlı səfərləri və imzalanan sənədlər, hökumət nümayəndə heyətlərinin görüşləri, biznes-forumların keçirilməsi iqtisadi hərarəti daha da dərinləşdirməkdədir. Hər iki ölkə iqtisadi platformada ortaq maraqlara xidmət edən təşəbbüslər və əməkdaşlıq formatını da əsas gündəliyə çevirib və regionda yeni yaradılan enerji-kommunikasiya, nəqliyyat xətlərində birgə təmsil olunmaq iradələrini nümayiş etdirməkdədir.

Bu günlərdə Azərbaycanda rəsmi səfərdə olan Monteneqronun Baş nazirinin müavini və xarici işlər naziri Ervin İbrahimoviçin rəhbərik etdiyi nümayəndə heyəti ilə görüşdə ikitərəfli münasibətlərin daha da artırılması və əməkdaşlığın yeni istiqamətləri barədə ətraflı fikir mübadiləsi aparılıb. Azərbaycan-Monteneqro Hökumətlərarası iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın həmsədri Sahil Babayev bildirib ki, dövlətlərarası münasibətləri dostluq, qarşılıqlı hörmət və tərəfdaşlıq prinsiplərinə əsaslanır. 2013-cü ildə Prezident İlham Əliyevin Monteneqroya rəsmi səfəri zamanı imzalanmış Dostluq və Tərəfdaşlıq haqqında Bəyannamə əlaqələri möhkəm təməl üzərində inkişaf etdirib. Tərəflər beynəlxalq təşkilatlar çərçivəsində, xüsusən də ərazi bütövlüyü və suverenlik məsələlərində hər zaman bir-birini dəstəkləyib. Son illərdə imzalanmış mühüm sənədlər müasir əməkdaşlıq gündəliyinin genişlənməsinə və potensialların reallaşdırılmasına, o cümlədən enerji sektorunda dayanıqlı təminatlara möhkəm hüquq baza yaradır.

### İqtisadi Əməkdaşlıq üzrə Birgə Komissiya faydalı platformaya çevrilib

Sahil Babayev vurğulayıb ki, Azərbaycan ilə Monteneqro arasında ikitərəfli münasibətlərin inkişafında İqtisadi Əməkdaşlıq üzrə Birgə Komissiyanın rolu mühüm əhəmiyyət kəsb edir, bu təsisat siyasi iradənin konkret iqtisadi nəticələrə çevrilməsində mühüm platformadır. Azərbaycanın Balkan regionu ilə sıx iqtisadi-ticari mübadilələrinin artması Monteneqro ilə də qarşılıqlı dövriyyələrin artmasına öz müsbət təsirini göstərib, son illərdə əmtəə dövriyyəsi əhəmiyyətli dərəcədə yüksəlib. Ölkələr arasında ticarət-iqtisadi əlaqələrin inkişafında müsbət dinamikanın mövcudluğuna baxmayaraq, mövcud statistik göstəricilər real potensialı əks etdirmir və siyasi münasibətlərin səviyyəsinə uyğun gəlmir. Əməkdaşlığın daha da genişləndirilməsi üçün böyük imkanları səfərbər etmək vacibdir. Ümumilikdə, hər iki ölkə qarşılıqlı əlaqələri daha da irəliyə aparmaq, strateji tərəfdaşlıq münasibətlərini möhkəmləndirmək və birgə layihələrin icrasını təşviq etmək üçün iradəyə malikdir və bu dayanıqlı potensialdan istifadə etmək niyyətini gizlətmir. Ervin İbrahimoviçin qeyd etdiyi kimi enerji, infrastruktur, aviasiya, kənd təsərrüfatı və mədəni-humanitar sahələrdə mövcud əməkdaşlıq imkanlarının qarşılıqlı faydalı layihələrin reallaşdırılması üçün geniş perspektivlər açır.

### Monteneqro Pan-Avropa enerji ailəsinə qoşulmaq istəyir

Monteneqro Baş nazirinin müavini Ervin İbrahimoviç bildirib ki, 2026-cı ilin mart ayında keçirilməsi nəzərdə tutulan Birgə Komissiyanın növbəti iclasının gündəliyi ticarətin şaxələndirilməsi, qeyri-neft sektoruna investisiyalar, yaşıl enerji, turizm, infrastruktur və kiçik və orta sahibkarlıq sahələrində əməkdaşlığa dair geniş məsələləri əhatə edəcək. Eyni zamanda, ticarət və investisiya sahəsində təmasları artırmaq üçün yaxşı imkanlar var, eləcə də Monteneqro şirkətləri Azərbaycanda sənaye zonaları və digər prioritet sahələrdə investisiya imkanlarından yararlanmaq niyyətindədir. Həmçinin enerji, turizm və humanitar sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün əlverişli potensial mövcuddur.

Ervin İbrahimoviç Azərbaycan enerji resurslarının nəqli sahəsində lider dövlət kimi mövqeyini təqdir edərək Monteneqronun da enerji təchizatında təminatçı ola biləcəyini istisna etməyib. Vurğulanıb ki, Monteneqro enerji resurslarının Avropaya nəqli baxımından əlverişli coğrafi mövqeyə malikdir. Bu baxımdan Azərbaycandan Avropanın Qərb hissəsinə çəklişi planlaşdırılan İon-Adriatik qaz kəməri strateji enerji xətti kimi körpü rolunu oyanaya bilər.

### Azərbaycan-Monteneqro "yaşıl enerji" birliyi qurula bilər



Monteneqro ənənəvi yanacaq tədarükü ilə yanaşı, Azərbaycanın bərpaolunan enerji mənbələrinin tədarükündə də maraqlı tərəf kimi fəallıq nümayiş etdirir. Rəsmi Podqoritsa dəfərlərlə "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi" layihəsinin həyata keçirilməsinə xüsusi maraq göstərdiklərini və həmin dəhliz vasitəsilə nəql olunacaq Azərbaycanın "yaşıl enerji" ehtiyatlarının  əldə edilməsinə maraqlarını ifadə edib. Bu əməkdaşlıq Azərbaycanın bərpaolunan enerji resurslarını tədarük etməklə yanaşı, Monteneqronun enerji təchizatının şaxələnməsi və təmiz enerjiyə keçidinə, "yaşıl iqtisadiyyat" quruculuğuna töhfə verəcək. Eyni zamanda, Azərbaycan bu ölkənin hidroenerji infrastrukturunun müasirləşdirilməsi və yaşıl sektorun şaxələnməsində fəal sərmayəçi kimi Balkan bölgəsində yeni enerji klubu yaratmağı hədəfləyir. Bu ölkədə bərpaolunan enerji mənbələri sahəsində böyük imkana malikdir və 200-dən çox günəşli gün və böyük hidroresurs potensialı var. Bu isə Azərbaycan-Monteneqro-Balkan "yaşıl enerji" alyansının qurulması üçün əla fürsət yaradır.

***E.CƏFƏRLİ***

# Həmişə görünən adam

## Xeyrəddin Qocanın görünən və görünməyən tərəfləri





Ötən əsrin 90-cı illərindən dövri mətbuatda söz adamlarının arasında olduğumdan, çoxlarını tanımışam. Elələri olub ki, "sözdən qala yapan"lara rişxənd ediblər, ələ salmağa çalışıblar. Çünki özləri "başqa yolun yolçusu" olublar: Mənəviyyatdan uzaq. Arxada qalan illərim ərzində Xeyrəddin Qoca kimi söz adamını da tanıdım, həm də satirik qələmi ilə "Molla Nəsrəddin" yolunun sadiq davamçılarından biri kimi.

Kəlbəcərin Ermənistan tərəfindən işğalından sonra Bakıda müvəqqəti məskunlaşdığımız o ağır günlərdə - 1993-cü ilin yazında Bakıda "Azərbaycan" nəşriyyatında iş axtardığım günlərdə adını eşitmişdim. O vaxtlar hələ indiki kimi, satirik qələm adamı olduğunu bilmirdim.

Bir müddət sonra tale məni Xeyrəddin Qoca ilə qarşılaşdırdı. Redaktor məqalənin müəllifi ilə maraqlanmışdı, deyəsən, yazı xoşuna gəlmişdi. Xeyrəddin müəllim harada işləməyimlə maraqlanmışdı. Biləndə ki "Respublika" qəzetinin məsul katiblərindən biri olmuşam, mənimlə görüşüb dedi:

- Bizdə işləyərsən?! Partiyanın qəzetidir də, həftədə bir dəfə çıxır. Düzdür, maaşı ürəkaçan deyil, amma heç olmasa, iş yerin olar.

Doğrusu, mən belə xeyirxaha birinci dəfə idi ki, rast gəlirdim.

Beləliklə, 1995-ci ildən "Yeni Azərbaycan" qəzetinin məsul katibi vəzifəsində işlədim. Bu, mənə yaradıcı bir insan kimi böyük hörmət idi.

Xeyrəddin Qoca, sözün əsl mənasında Heydər Əliyevə bağlı bir adam idi. Yeni Ulu Öndərin Azərbaycana necə hava-su kimi lazım olduğunu həm bizə təlqin etməyə çalışır, bunu həm də qəzetin materiallarının ideya istiqamətinin əsası hesab edirdi. Biz azərbaycançılıq məfkurəsini sevərək, yeni Azərbaycanın qurulması ideyasını təbliğ edirdik. Az keçmədi ki, redaksiya əməkdaşları (Xeyrəddin müəllim əvvəllərdən, YAP yaradılandan bu siyasi təşkilatın Siyasi Şurasının üzvü idi) Yeni Azərbaycan Partiyasının sıralarına keçmək üçün ona müraciət etdik. O isə bu təklif və təşəbbüsü bəyənərək, bizim partiya üzvlüyünə qəbul edilməyimizə vəsilə oldu. Beləliklə, biz YAP Nəsimi rayon təşkilatında qeydiyyata alındıq. Hazırda da YAP Bakı şəhəri Nəsimi rayon təşkilatının nəzdindəyəm.

**"Xeyrəddin Qocanın anadan olmasının 75 illiyi ilə əlaqədar "Molla Nəsrəddin" yolu" adlı yeni kitab işıq üzü görüb"**

Dövri mətbuatda bu başlıq altında bir sıra xəbərlər xəbərlər dərc edilib. Kitabda akademik İsa Həbibbəylinin "Satirik qələmlə mübariz keşikdə", "Akademik Nizami Cəfərovun dedikləri", AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Mətbuat tarixi və publisistika şöbəsinin baş elmi işçisi, filologiya elmləri doktoru Gülbəniz Babayevanın "Molla Nəsrəddin" ədəbi məktəbinin layiqli davamçısı", filologiya üzrə fəlsəfə doktoru Alqış Musayevin "Yazıçı, publisist, diplomat", şair-publisist Sərvaz Hüseynoğlunun "Siyah içindəymiş sədəf, sən demə..." kimi dəyərli yazıları, eləcə də bir ayrı-ayrı qələm adamlarının fikir, mülahizə və düşüncələri yer alıb.

Məqalələrin hamısında Ümummilli Lider Heydər Əliyevlə Xeyrəddin Qocanın unudulmaz, xoş görüşləri haqqında fikirlər qırmızı xətlə keçir.

Yazıçının 40-a yaxın hekayəsi, "Zamanın rüzgarı", "Bu da axırı..." adlı pyesləri, səhnələşdirilmiş əsərlərinin afişaları, bəzi tamaşalarından səhnələr, ona həsr olunmuş "Dostluq şarjları", satirik hekayələrinə çəkilmiş gülüş dolu illüstrasiyalar kitabın məziyyətlərini daha da artırır.

Xeyrəddin Qoca xalqımızın Ümummilli Lideri Heydər Əliyevin ən alovlu təbliğatçılarından və sadiq silahdaşlarından biridir. Xeyrəddin Qoca, Heydər Əliyevin ifadəsi ilə desək, Onun tanımadığı adamlardan biri idi. Heydər Əliyevin tanımadığı adamlardan birincisi olaraq antiəliyev kampaniyasına qarşı öz etiraz səsini ucaldırdı.

Xeyrəddin Qoca Azərbaycan cəmiyyətində ötən əsrin səksəninci illərinin sonu, doxsanıncı illərinin əvvəlində tanınmağa başlayıb. O dövr təlatümü ilə yadda qalıb. Sovet dövrünün xofu yaddaşlardan silinməmişdi. Bəziləri sürətlə cərəyan edən hadisələrin axarını, sabah nə baş verəcəyini aydın təsəvvür etməyərək, mövqelərini bildirməkdən çəkinir, "suların durulmasını" gözləyirdi. Təbii ki, belə mövqesizlik Xeyrəddin Qocadan uzaq idi. Həmin təlatümlü dövrdə - hakimiyyətin dövləti idarə etmək iqtidarında olmadığı, müxtəlif qüvvələrin isə respublikada vətəndaş qarşıdurmasına çəkildiyi bir zamanda ölkənin, xalqın yeganə xilaskarının - Ulu Öndər Heydər Əliyevin Azərbaycanın siyasi rəhbərliyinə dəvət edilməsi təşəbbüsü ilə çıxış edən ziyalılardan biri də Xeyrəddin Qoca idi. O, vətəndaş mövqeyi ilə qələmə aldığı çoxsaylı məqalələrində həm siyasi əleyhdarlarının cavabını verir, həm də uzaqgörən Heydər Əliyevin respublikanı xilas edəcək yeganə rəhbər ola biləcəyi ideyasının təbliğinə özünəməxsus töhfələr verirdi.

Heydər Əliyev haqqında keçmiş İttifaqın və Azərbaycan kommunist mətbuatında yazılan böhtan və iftiralara verdiyi çoxsaylı yazılarına görə müəllif təqiblərə məruz qalırdı. Əvvəlcə Korlar Cəmiyyətinin qəzeti olan "Dan ulduzu"ndakı redaktor vəzifəsindən, daha sonra "Mədəniyyət" qəzetində baş müxbirlikdən uzaqlaşdırılması da bu səbəbə bağlı idi.

Xeyrəddin Qocanın Ulu Öndər Heydər Əliyevə həsr olunmuş silsilə məqalələri hakimiyyətdəkiləri qane etmirdi, buna görə də müxtəlif bəhanələrlə onu işindən uzaqlaşdırırdılar. O, "Sərhəd" qəzetində cəmi 11 gün işləyib. Bu dəfə Xeyrəddin Qoca Naxçıvan MR Ali Məclisinin sədri Heydər Əliyevdən müsahibə almaq üçün muxtar respublikaya gedib. O, geri qayıtdıqdan sonra sərhəd xidməti rəisinin tapşırığı ilə bu işindən də uzaqlaşdırıldı. "Mozalan" qəzetində redaktor müavini vəzifəsini tərk etməsi də eyni səbəblə bağlı idi.

O dövrü xatırlayanlar unutmayıb ki, 90-cı illərdə onun yaratdığı "Dan ulduzu" qəzeti əldən-ələ gəzirdi. Xeyrəddin müəllimin Heydər Əliyev haqqında olan məqalələrini oxuyanlar təəccüblə bir-birlərindən soruşurdular: "Bu "qurd ürəyi yeyən" adam kimdir"?!

Sadə jurnalist Heydər Əliyevi əsassız hücumlardan qorumaq üçün əlindən gələn hər şeyi etməyə hazır idi və edirdi, bu, hətta onun həyatına və gələcək karyerasına ciddi təhdidlər yaratsa da belə.

Xeyrəddin Qocanın həmin təlatümlü dönəmdə heç nədən çəkinmədən Heydər Əliyevin müdafiəsinə qalxması onun Ulu Öndərə dərin rəğbətinin, inamının və təbii ki, cəsarətinin təcəssümü idi. Dövlət müstəqilliyinin bərpasının ilk illərində çətin vəziyyətdə qalan xalq nicat yolunu Heydər Əliyevin yenidən Azərbaycanın rəhbərliyinə gəlməsində görür və buna israr edirdi. X.Qoca da dərin inamla ön cəbhədə Heydər Əliyevin yanında dayanmışdı...

Xeyrəddin Qoca məhz yazılarında özünü, hisslərini, həyata baxışlarını, vətənpərvərliyini və ziyalılığını daha dolğun və peşəkar şəkildə ifadə edir, - desək, yanılmarıq.

Jurnalist Şahanə Müşfiq Xeyrəddin Qocanın 70 illik yubileyi münasibətilə yazdığı məqaləni "Güldürə-güldürə düşündürən yazıçı" adı altında təqdim edib. "Xeyrəddin Qoca adı çəkilərkən ilk növbədə yada satira, yumor düşür, çünki yazıçı öz etirazını, ağrısını, kədərini, narazılığını məhz gülüş vasitəsilə çatdırır", - deyə müəllif vurğulayır.

Təbii ki, satira cəsarət tələb edir. Tənqid yazanda "marallar"ın, antipodların xoşuna gəlmirsən, sənə qarşı qısqanclıq hissləri yaranır. Lakin bütün bunlar onu əsla çəkindirmir. O, müxtəlif sosial-ictimai problemləri daha iti qələmlə əsərlərinin mövzusuna çevirir.

Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar Xeyrəddin Qocanın xarakterindəki cəsarəti, qorxmazlığı lakonik şəkildə belə təsvir edib: "Satirik olmaq cəsur olmaqdır, heç nədən qorxmamaqdır. Bu gün həyatımızda olan bir çox nöqsanları görmək və göstərmək cəsarətdir".

**"Xeyrəddin Qoca heç nədən və heç kimdən qorxmur..."**

Şair-publisist Əbülfət Mədətoğlunun da bir yazısı diqqətimi cəlb etdi. "Düşündürən və güldürən Xeyrəddin Qoca" başlıqlı həmin məqaləsində müəllif yazır: "Bəri başdan deyim ki, Azərbaycanın, eləcə də mənim əminliklə bildiyim kimi, söz məkanında, mətbuat aləmində onun özünü və imzasını tanımayan yəqin ki, yoxdur.

"Molla Nəsrəddin yolu" adlanan kitab şairimizi xeyli düşündürür. Kitabda Xeyrəddin Qoca haqqında, onun öncə işıq üzü görən kitablarında dərc olunmamış mətbu yazılar toplanıb. Həmçinin ustad barəsində müxtəlif titullu və imzası tanınan söz adamlarının 70 və 75 illik yubiley tədbirləri ilə bağlı fikirləri də yer alıb.



**"Öz yeri olan adam"**

Bu sərlövhəli məqalə də həmin kitabda yer alıb. Ə. Mədətoğlu qeyd edir: "...Mən AMEA-nın prezidenti, akademik İsa Həbibbəylinin kitabda yer alan yazısında xüsusi qeyd etdiyi bir-iki fikri məmnunluq hissi ilə qəbul edirəm. İsa müəllim vurğulayır: "Xeyrəddin Qoca, hər şeydən əvvəl, tanınmış qəzetçi, publisistdir"".

Yazılı mətbuatı, nəsri, poeziyanı, dramaturgiyanı, bir sözlə, qələm məhsullarını sözün abidəsi kimi ucaldır.

Bu kitabda toplanan materialların hər birində çevrəmizdəki müəyyən hadisələrə satirik baxış və bir də "için-için gülmək" gördüm. Elə o gülüşün bir ipucu da yazıçı Kamran Nəzirlidən gəldi. Çünki Kamran Nəzirli Xeyrəddin müəllimə yazdığı kiçik bir məqalədə fikrini çox yığcam bildirib:

**"Allah səni güldürsün, Xeyrəddin!"**

Xeyrəddin Qoca hələ "Yeni Azərbaycan" qəzetinin baş redaktoru olarkən bir sıra məmurları, o cümlədən bu gün akademik adına ləkə gətirənləri belə çəkinmədən tənqid atəşinə tuturdu. Yazıçı o vaxtlar hakimiyyətdə lövbər salmış, lakin nə dövlətə, nə də xalqa xeyir verməyib, öz mənsəblərini düşünən bəzi üzdəniraq məmurları, nazirləri tənqid etməkdən çəkinmirdi.

Xeyrəddin Qoca və işlədiyi qəzetin əməkdaşları "çətin günün ömrü az olar" deyiminə tapınaraq, aylarla əməkhaqqı almadan Ulu Öndər Heydər Əliyevin siyasətinin təbliğində can-dildən çalışdıqlarının canlı şahidiyəm.

Ümummilli, ümumxalq əhəmiyyətli məsələlər onu daha çox düşündürürdü. Məsələn, bizim ailənin məcburi köçkün olduğunu bilən X.Qoca həyat yoldaşıma da redaksiyada iş verməklə yurd-yuvasından didərgin salınmış insanların taleyinə biganə olmadığını təsdiqləmişdi. Onun ailəmizin güzəranını yaxşılaşdırmaq üçün etdiyi fədakarlıqları heç vaxt unutmarıq.

Yaxşı xatırlayıram. Qəzetdə respublika Baytarlıq Komitəsinin illik fəaliyyəti ilə bağlı məqalə dərc olunmuşdu. Komitənin sədri redaksiya kollektivini bir gün günorta naharına dəvət etmişdi. Əlimizi süfrəyə uzatmamış Xeyrəddin müəllim komitənin sədrinə üzünü tutub dedi:

- Siz bizim kollektivi başqaları ilə səhv salmısınız. Biz haradansa yazıb, maddi nəsə ummamışıq heç vaxt, təklif edən də olmayıb. Ona görə özümüzü narahat hiss edirik. Bu qonaqlığın əvəzinə, bizim redaksiyada çalışan kəlbəcərli məcbur köçkün ailəsinə maddi dəstək göstərsəydiniz, daha yaxşı olardı...

O, mənə işarə ilə fikrini belə davam etdirdi:

- Bax bu Məhəmməd Kəlbəcərdəndir. Orada da qəzetdə məsul katib işləyib. Ermənilər Kəlbəcərini işğal edəndən didərgin düşüb, Bakıda fəhlə yataqxanalarının birində sığınacaq tapıb. Heç nəyi, hətta bir ağ-qara televiziyası, əl radiosu da yoxdur ki, xəbərləri dinləsin...

Bu hadisədən iki gün keçdi, komitə sədri bizim ailəyə bir rəngli televiziya, antennası, stabilizatoru ilə hədiyyə etmişdi.

Bir sözlə, Xeyrəddin Qoca yığcam olan kollektivimizin hər bir üzvünün şəxsi qayğıları ilə də yaşayırdı. O, dəfələrlə redaksiyaya məqalə gətirən kənar müəlliflərə özünü başqaları kimi aparmırdı. Adlarını çəkmədiyim özündənrazılar mətbuatda da az deyildilər o vaxtlar. Xeyrəddin müəllim kimi sadə, səmimisini görmədim. Xeyrəddin müəllim əməkdaşlarla bir otaqda əyləşən baş redaktor olub. Heç vaxt öz kabinetində əyləşməz, yazıları da bizimlə birlikdə olduğu ümumi otaqda redaktə edərdi. Redaksiyaya yazı gətirən müəlliflər redaktoru soruşanda onun dedikləri bu gün də yadımdadır:

- Yazı gətirmisiz?! Əcəb eləmisiz! Başqa redaksiyalar dərc eləmədiyi yazıları da mən verirəm qəzetdə. Qəzet məmurların deyil, xalqınkıdır. Biz də xalqa və dövlətimizə xidmət edirik. Burada elə hamı redaktordu. Nə fərqi var kimdi redaktor?! Yazını əməkdaşların birinə verin, narahat olmayın...

Xeyrəddin Qocanın Milli Məclisin üzvlüyünə namizədliyi veriləndə istədi ki, redaksiya əməkdaşları təbliğat kampaniyasına qoşulsun. O, buna qəti etiraz etdi. Çünki özünün imzasına güvənirdi.

Xeyrəddin Qoca bir gün iş yerinə "qaranəfəs" gəldi. Bir az da əsəbi idi, sanki. Milli Məclisin üzvü olan Xeyrəddin Qoca bu əsəbiliyinin səbəbini açıqladı:

- Ay uşaqlar, siz deyin, deputat olan adamı mütləq polis müşayiət eləməlidi? Deputat binaya girəndə polis digər jurnalistləri, nəşriyyata gələn qonaqları qapı ağzından, girişdən "çəkilin, çəkilin!"-deyib, deputatın qabağına qaçmalı və onu kimlərdənsə qorumalıdır?! Bəs bu nə idi, başım çıxmadı?! Məni giriş qapısında dayanan polislər qorumağa çalışdılar. Mən də biabır elədim. Dedim ki, ay kişilər, məni kimdən qoruyursunuz?! Bu insanlar niyə belə itaətkar olublar, bilmirəm. Bizə xalq səs verib. Biz xalqın səsiyik, yoxsa xalqdan qorxmalıyıq?! Anlamıram bəzilərini. İndi nəşriyyatın giriş qapısındakı polislərlə az qala, vuruşmuşam ey...

Xeyrəddin müəllimin Milli Məclisdəki fəaliyyəti dövründə orada qarşılaşdığı məsələlərə satirik qələmlə baxışı da olduqca maraqlı idi. Belə yazıların o, "Marallar" rubrikasında dərc elətdirirdi. Sən demə, bütün bunları o, yaradıcılığının səhifələri kimi gələcəkdə oxucularına kitablar şəklində çatdırmağı düşünürmüş. Belə olmasaydı, onun oxucu qəlbinə yol tapan "Marallar", "Biz bizə bənzərik...", "Ömür belə keçir...", "Hərənin öz payı...", "Hərə öz payını götürsün", "Gərək yazam...", "Yazdıqlarım, yazılanlar", "Yalnız yazılan qalacaq", "Bu da belə həyatdır...", "Filankəslər", "Molla Nəsrəddin" yolu" və s. kitabları necə ərsəyə gələrdi.

Xeyrəddin Qoca bəxtəvər yazıçıdır, təkcə ona görə yox ki, onun pyesləri akademik və digər məşhur teatrlarda səhnələşdirilib. Həm də ona görə ki, oxucu, tamaşaçı Xeyrəddin Qocanın müasiridir. O, bu günün Molla Nəsrəddinidir: mətbuat vasitəsilə, həm də "güldürə-güldürə" "marallar"ının "buynuzunu" qələmi ilə sındıran yazıçıdır. O, jurnalistliyi də yəqin məhz buna görə seçib.

**...Kəlbəcərimizin işğalından sonra erməni daşnaklarına "qarğış sanki mənim "qələmimin boyuna biçilmişdi"**

Qəzetin hər sayında qəlb göynədən şəhid yazılarım və kəlbəcərlilərin minbir zülm-zillətlə qanlı-qarlı Murov dağını aşıb, Gəncəyə necə gəlmələri barədə məqalələrim dərc olunurdu.

Bir gün Xeyrəddin müəllim zarafatla nə desə yaxşıdır:

- Ə, Məhəmməd, bu erməni zırramalara nə deyim?! Səni kiridə bilmirik. Vallah, biləm ki, ermənilər Ağdaşnan Kəlbəcəri dəyişər, "məmnuniyyətlə razı olardım". Amma onlara Ağdaş lazım deyil ey, Kəlbəcərin sərvət yatağı və strateji əhəmiyyəti var. Ağdaşda ağ daş da yoxdu. Nətər edək ki, Kəlbəcəri qaytarsınlar, bəlkə sən də kiriyəsən?!

Əlbəttə, bu, Xeyrəddin Qocanın zarafatlarından biri olsa da, orada həqiqəti görün necə gözəl etiraf edir: "Kəlbəcər lazım idi ermənilərə, Ağdaş yox..."

Xeyrəddin Qocanın qəlbi gülüşlə dolu deyil. O, insanı güldürür və özü çəkilib kənardan güldürdüklərinin halına acıyır. Axı, onun satirası, yumoru heç də "hırıldayıb-gülmək" üçün yazılmayıb. "Molla Nəsrəddin" yolunun davamçısı olan Xeyrəddin Qoca müdrikliklə ictimai eybəcərliklərə təkcə özü gülmür, oxucularını da güldürür. Güldürür ki, baxın, dünən "akademikin ətəyində namaz qılanlar" bu gün görün necə gülünc vəziyyətə düşüblər.

Xeyrəddin Qoca qardaş Türkiyədə Azərbaycan Respublikasının baş konsulu vəzifəsində çalışarkən də fəaliyyəti ilə diqqət mərkəzində idi. Qardaş Türkiyədə işləməyə gedən neçə-neçə soydaşımızın orada sosial və hüquqi sahədə problemlərinin həll etməkdə üzərinə düşən vəzifəni layiqincə yerinə yetirdi.

Ümummilli Lider Heydər Əliyev Moskvadan Azərbaycana qayıdanda hava limanında X.Qoca görüşəndə belə bir söhbət olub:

Heydər Əliyev:

-Sən nə etmisən?

Xeyrəddin Qoca təəccüblənib, bir az da narahat olub.

Heydər Əliyev:

-Bilirsən, sən özünü əjdahaların, ilanların içinə atmısan! Mənim haqqımda yazdıqlarına görə, səni də, ailəni də məhv edə bilərdilər!

Kitablarına yazılan resenziyalar, ədəbi təhlillər göstərir ki, o, gülüşü ilə insanlıq, mənəviyyat, əxlaq, milli-mənəvi dəyərlərə sadiqlik dərsi keçir.

***

Qələmi ilə özünə gün-dirrik, həyat quran, xalqına, dövlətinə sədaqətli xidmətləri ilə seçilən Xeyrəddin Qocanın hər yazısı bir akademik məruzədən artıq dərsdir, qanana, anlayana.

Xeyrəddin Qoca ömrünü Vətənə, dövlətə, xalqa xidmətə həsr etmiş bir dahi şəxsiyyətin yaxından tanıdığı və Onun etibarını qazandığı qələm adamıdır.

Xeyrəddin müəllimə ömrünün 75-ci fəslində arzuladıqlarım çox deyil.

Xalqımızın istəyi kimi, ikimizin də bir arzumuz var idi: Kəlbəcəri düşməndən azad edib, o cənnət məkana Xeyrəddin ilə birlikdə gedək. Onda Xeyrəddin müəllim Kəlbəcərim üçün vaxtilə ağlamağıma daha çox haqq qazandıracaq!

***Məhəmməd NƏRİMANOĞLU***
***Subyekt.az***

# Mayamidən sonra...

## Yeni görüş gözlənilir

Mayamidə Rusiya - Ukrayna müharibəsinin dayandırılması və problemin sülh yolu ilə həlli istiqamətində yeni danışıqlar raundu baş tutub. Görüş bir neçə saat çəkib. Ukrayna nümayəndə heyəti Ukrayna Milli Təhlükəsizlik və Müdafiə Şurasının katibi Rüstəm Umerov və Ukrayna Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Andrey Qnatovdan ibarət olub. Amerika nümayəndə heyətini isə Cared Kuşner, Ağ Ev rəsmisi Coş Qruenbaum və Trampın xüsusi nümayəndəsi Stiv Vitkoff təmsil edib.

### 4 plan üzrə...

Görüşdən sonra ABŞ prezidentinin xüsusi nümayəndəsi Stiv Vitkoff və Ukrayna Təhlükəsizlik və Müdafiə Şurasının katibi Rustem Umerov danışıqların yekunlarına dair birgə bəyanat yayımlayıblar. Mətbuat üçün açıqlama Ukrayna və ingilis dillərində dərc olunub. Bəyanatda bildirilir ki, 3 gün ərzində Floridada olan Ukrayna nümayəndə heyəti amerikalı və avropalı tərəfdaşlarla “məhsuldar və konstruktiv” görüşlər silsiləsi keçirib. Danışıqlar zamanı ABŞ ilə Ukrayna nümayəndə heyəti arasında 4 əsas sənəd müzakirə olunub. Müzakirə edilən əsas sənədlərə gəldikdə isə, bu, 20 maddədən ibarət plan, çoxtərəfli təhlükəsizlik zəmanətləri, ABŞ-ın Ukrayna üçün təhlükəsizlik zəmanətləri sistemi və iqtisadi inkişaf və rifah planıdır.

Birgə açıqlamada vurğulanır ki, Ukrayna ədalətli və davamlı sülhə nail olmaq məqsədinə tam sadiq qalır. “Ukrayna Birləşmiş Ştatların liderliyini və dəstəyini, eləcə də bu mühüm işin növbəti mərhələlərində tərəfdaşlarla sıx koordinasiyanın davam etdirilməsini yüksək qiymətləndirir”, - deyə bəyanatda bildirilib. Danışıqların detalları açıqlanmasa da, yayılan məlumatlar Vaşinqton-Kiyev xəttində təhlükəsizlik və iqtisadi əməkdaşlığın yeni mərhələyə keçə biləcəyinə dair siqnallar kimi qiymətləndirilir.

### Vitkoff təsdiqlədi...

ABŞ Prezidenti Donald Trampın xüsusi nümayəndəsi Stiven Vitkoff danışıqların əsas mövzuları ilə bağlı “X” sosial media platformasında paylaşım edib. Xüsusi nümayəndənin sözlərinə görə, görüş məhsuldar, konstruktiv olub - o, görüşün dörd əsas məsələ üzərində qurulduğunu bir daha təsdiqləyib. “Müzakirə növbəti addımların vaxtı və ardıcıllığı üzərində fokuslanıb”, - deyə Vitkoff vurğulayıb.

Trampın sözçüsü bildirib ki, “bizim ortaq prioritetimiz qətllərə son qoymaq, zəmanətli təhlükəsizliyi təmin etmək və Ukraynanın bərpası, sabitliyi və uzunmüddətli rifahı üçün şərait yaratmaqdır. Sülh sadəcə hərbi əməliyyatlara son qoymaqdan daha çox, həm də sabit gələcək üçün layiqli bir təməl olmalıdır”. Stiven Vitkoffun sözlərinə görə, Ukrayna nümayəndə heyəti Mayamidə avropalı tərəfdaşlarla da görüşüb.



Rusiya Prezidentinin xarici ölkələrlə investisiya və iqtisadi Əməkdaşlıq üzrə xüsusi nümayəndəsi və Rusiya Birbaşa İnvestisiya Fondunun (RDIF) rəhbəri Kirill Dmitriyev qeyd edib ki, Ukraynadakı münaqişənin həlli ilə

### Növbəti məkan - Moskva...

bağlı növbəti Rusiya-Amerika görüşü Moskvada keçirilə bilər. “Təşəkkür edirəm, Mayami. Növbəti dəfə: Moskva”, Dmitriyev “Facebook” səhifəsində yazıb.

Qeyd edək ki, 20 və 21 dekabr tarixlərində Dmitriyev də Mayamidə olub və orada ABŞ Prezidentinin xüsusi elçisi Stiven Vitkoff və Cared Kuşner ilə görüşüb. Vitkoff görüşün nəticələri ilə bağlı bildirib ki, Rusiya Ukraynada sülhə nail olmağa tam sadiqdir. “Rusiya Ukrayna münaqişəsinin həlli və qlobal təhlükəsizliyin bərpası üçün ABŞ-ın səylərini və dəstəyini yüksək qiymətləndirir”,- deyə Uitkof əlavə edib.

Danışıqlardan sonra Dmitriyev “müharibə qızışdıranların” danışıqlar prosesini poza bilmədiyini bildirib.

### Aİ təmsilçiləri də Ukrayna və ABŞ nümayəndələri ilə görüşüb

Sonradan Ukrayna təmsilçiləri ilə Aİ nümayəndələri arasında da görüş baş tutub. Avropanın əsas milli təhlükəsizlik məsləhətçiləri Ukrayna, ABŞ və Avropa arasında ortaq strateji yanaşmanı əlaqələndirmək üçün müzakirəyə qoşulublar. Bu barədə Ukrayna nümayəndə heyətinin rəhbəri, Ukrayna Milli Təhlükəsizlik Şurasının (NSDC) katibi Rüstəm Umerov özünün Telegram kanalında məlumat verib. “ABŞ-da Amerika və Avropa tərəfdaşları ilə görüşümüzü başa vurduq”, - deyə o, Ukrayna Prezidenti Volodimir Zelenskiyə nəticələr barədə məlumat verdiyini qeyd edərək yazıb. Onun sözlərinə görə, danışıqlar zamanı növbəti addımlar və yaxın gələcəkdə birgə işlərin davam etdirilməsi barədə razılıqlar əldə edilib.

“Axios”un məlumatına görə, danışıqlarda Avropanı Almaniya, Fransa və Böyük Britaniya liderlərinin milli təhlükəsizlik müşavirləri təmsil edib. Növbəti gün Ukrayna Prezidenti Volodimir Zelenski ABŞ-ın Ukrayna, Rusiya və Avropa ilə birbaşa danışıqlar aparmağı təklif etdiyini açıqlayıb. Kiyev bu təşəbbüsü dəstəkləyib.

### Vens də alqışladı...

Bu arada ABŞ-ın vitse-prezidenti Cey Di Vens də Ukrayna üzrə aparılan danışıqlarda əhəmiyyətli irəliləyiş əldə edildiyini bəyan edib. Onun sözlərinə görə, tərəflər arasında əsas problemlər artıq açıq müzakirə mərhələsinə çıxarılıb. “Mən hesab edirəm ki, biz mühüm bir irəliləyişə nail olmuşuq. Bütün problemlər açıq şəkildə masaya qoyulub. Adətən mürəkkəb danışıqların əvvəlində tərəflər vəziyyəti bir qədər dolaşdırır, saxta mövzular arxasında gizlənir və kartlarını açmırlar. Bu, çətin danışıqlarda hər kəs üçün xarakterikdir”, - deyə ABŞ vitse-prezidenti bildirib.

Vens vurğulayıb ki, son bir neçə həftə ərzində həm ukraynalıların, həm də rusların hansı məsələlərin müzakirə mövzusu olmadığını, hansılarının isə danışıla biləcəyini real şəkildə anladıqları aydın görünür. Onun fikrincə, bu anlayış danışıqlar prosesinin irəliləməsi üçün mühüm zəmin yaradır.

### 800 minlik ordu saxlamaq üçün...

Qeyd edək ki, hələ görüşdən öncə Ukrayna Silahlı Qüvvələrinin Donetsk ərazisindən Rusiya qüvvələri ilə paralel güzgü şəklində geri çəkilməsi məsələsi gündəmə gəlmişdi. Daha əvvəl “Politico” qəzeti Ukraynanın Donbasda silahsızlaşdırılmış azad iqtisadi zona yaratmaq təklifini rədd etdiyini bildirmişdi. Bu arada, 12 dekabrda Yuri Uşakov zamanla Donbasda “nə Rusiya, nə də Ukrayna” qoşunlarının olacağını, lakin Rusiya Milli Qvardiyasının orada asayişi qorumaq üçün yerləşdiriləcəyini irəli sürmüşdü.

“The New York Times” qəzetinin məlumatına görə, Avropa İttifaqı və ABŞ nümayəndələri Kiyev üçün təhlükəsizlik zəmanətləri ilə bağlı iki sənəd üzərində razılığa gəliblər və sənəddə Ukraynada Avropa qüvvələrinin yerləşdirilməsi ehtimalı qeyd olunur - qeyd edək ki, Moskva bu ssenari ilə razılaşmır.

Son açıqlamasında Volodimir Zelenski Ukraynanın 800.000 nəfərlik ordunu müstəqil şəkildə saxlaya bilməyəcəyini etiraf edib. “Xeyr, buna qadir deyilik - maliyyə resurslarımız yoxdur. Məhz buna görə də mən bu ölkələrin liderləri ilə bu dialoqu apararam, çünki mən ordumuzun tərəfdaşlarımız tərəfindən qismən maliyyələşdirilməsini təhlükəsizliyimizin qarantı hesab edirəm”, - deyə o bildirib.

**SADİQ**

# Yüz ilə sığmayan gün

## Çingiz Aytmatovun “Gün var əsrə bərabər” romanı haqqında

1990-cı ildə Çingiz Aytmatovun “Çingiz xanın ağ buludu” adlı povesti işıq üzü gördü, üstündən bir-iki il keçmiş filoloq Məti Osmanoğlunun tərcüməsində əsər kitabça şəklində bizdə də çapdan çıxdı. Kitabın annotasiyasında povest yazıçının dünya şöhrətli “Gün var əsrə bərabər” romanına əlavə kimi təqdim olunurdu, hərçənd Çingiz xanla bağlı əfsanəvi süjeti həm başdan, həm də sondan romanın Stalin repressiyasına qurban getmiş talesiz personajı Abutalıb Kuttubayevlə bağlı iki fəsil müşayiət eləyirdi. Tezliklə bəlli oldu ki, roman nəşrə imzalandığı 1980-ci ildə Suslov ideoloji senzurasının qayçısına tuş gəldiyinə görə bu fəsillər kitabdan çıxarılıbmış. Müəllif ilk fürsətdəcə şikəst olunmuş əsərinin qopuq əzalarını yerinə oturdub.

Oxuyanlar bilirlər ki, bu romanda iki mifik süjet var: biri Çingiz xanla bağlı həmin rəvayət, o biri - adı artıq dünya ədəbiyyatında terminə, istilaha çevrilmiş manqurt haqqında əfsanə. Birində yazıçı insanın ağalıq ehtirasını (Çingiz xan obrazının prototipi, əlbəttə, ellər atası Stalin yoldaşdır), o birində köləlik instinktini hədəf götürüb. Bu dünyada şərin zatən iki üzü var - biri zalım, despot üzü, o biri məzlum, qul üzü. Xeyirin yolu bu ikiüzlü, ikibaşlı dünyanın iki qütbünün arasından keçib göyə ucalır - yer üzünü iki qütbə bölən dəmir yolun uzandığı Sarı-Özək çölünün ortasındakı, özəyindəki kosmodromdan göyə millənən kosmik raketlər kimi:

“Qatarlar bu yerlərdə şərqdən qərbə, qərbdən də şərqə gedirdi...

Bu yerlərdə dəmir yolunun hər iki tərəfi ilə intəhasız Sarı-Torpaq çöllərin göbəyi hesab edilən Sarı-Özək düzənliyi uzanıb gedir...

Coğrafiyada hər şey Qrinviç meridianından ölçülən kimi bu yerlərdə də bütün məsafələr dəmiryolla ölçülürdü.

Qatarlar isə şərqdən qərbə, qərbdən də şərqə gedirdi...” (Tərcümə İshaq İbrahimovundur)

Bu abzas romanın refreni, əsər boyu dönə-dönə təkrarlanan rədifidir. Bəli, rədif təkcə şeirdə olmur...

***

Yüzdən artıq ölkədə yüz səksənə yaxın dilə çevrilmiş bu romanın bir adı da “Boranlı yarımdayanacaq”dır. Yadımdadır ki, ötən əsrin səksəninci illərinin əvvəllərində “Roman-qazeta” adlı populyar sovet ədəbi dərgisində (roman ilk dəfə “Novıy mir” jurnalında indiki adıyla işıq üzü görmüşdü) əsər bu adla nəşr olunmuşdu, Pasternakın 1959-cu ildə yazdığı “Tükənməz günlər” şeirinin axırdan əvvəlki misrasından götürülmüş “Gün var əsrə bərabər” başlığı isə ikinci ad kimi verilmişdi. Sonradan ikinci başlıq birincini üstələdi, Aytmatovun ilk romanı məhz bu adla məşhurlaşdı. Müəllifin “Boranlı” adlandırdığı dayanacağın prototipi isə Qazaxıstan ərazisindəki Baykonur kosmodromunun yaxınlığında yerləşən Töretam stansiyasıdır.

Yazıçı əsərinə sadə bir dəmiryolçu fəhlə Yedigey Cangəldini (balaca yarımstansiyada ömürlük kök saldığına görə ona Boranlı Yedigey deyirlər) qəhrəman seçməklə onu dünyanın, kainatın ortasına çəkib - bir alimi, şairi, sərkərdəni, kosmonavtı yox, məhz fəhləni, “kiçik” insanı, onun mənəvi aləmini, onun baxışlarını hadisələrin mərkəzinə qoyub. Hadisələr deyəndə ki, burada elə çox hadisə də yoxdur, hər şey elə əsrə bərabər o bir günün içində baş verir, qəhrəmanın könül dostu Qazanqapın ölümüylə başlayıb dəfniylə bitir. Ancaq vaxtın indisini simvolizə eləyən o bir günün içinə zamanın xarabalıqları altında can verən nəhəng bir keçmiş də sığır, uzaq planetdən yer üzünə doğru yola çıxmış parlaq bir gələcək də. Müəllif keçmişi-gələcəyi bir uzun günün bazasına toplamaqla zamanın indisinə əbədiyyət pasportu verir, hərçənd yaxşı məlumdur ki, zamanın indisi olmur, indiki zaman elə gəlmir, indi yalnız əbədiyyətə xas anlayışdır.

Əlbəttə, bunun tərsini də deyən tapılar - ki, zaman, həyat yalnız indiki zamanda mövcuddur, zamanın nə keçmişi var, nə gələcəyi, yeganə gerçək zaman, yaşanan zaman indiki zamandır. Qədim mübahisədir, o qədər qədimdir ki, insanlar daha bunu çəkib-çevirməkdən yorulublar, düşünməyi yadırğayıblar, zamansa yorulub-usanmadan onları beşiyində min il əvvəlki təmkiniylə yırğalayır. Əsas odur ki, Aytmatovun romanına iki tərifin, iki yanaşmanın ikisi də yarayır, əsrə bərabər o gün hər iki halda əbədiyyətə vəsiqə qazanmış sayılır.

***

Əsrə bərabər gündən otuz il qabaq - qırx dördüncü ilin sonunda döyüşdə kontuziya alıb cəbhədən tərxis olunanda həkimlər Yedigeyi bir ilə tam sağalacağına inandırmışdılar, intəhası həmin müddətdə ona ağır iş tutmaq yaramazdı. Bu səbəbdən o, arvadıyla birgə dəmiryol idarəsinə üz tutur ki, bəlkə orada veteran üçün gözətçidən-qarovulçudan bir iş tapıla. Orada Yedigey təsadüfən dəmiryolçu Qazanqapla tanış olur, sözləri-söhbətləri tutur, Qazanqap gənc ailəni Boranlıya dəvət eləyir. Adamsız, susuz çöllərin ortasındakı səkkiz-doqquz komalıq yarımstansiyada şərait ağır olsa da, yenə evsiz-eşiksiz sərgərdan dolanmaqdan yaxşıdır.

Boz səhranın göbəyindəki razyezdi ilk görəndə Yedigeyin gözü qırılır - ortada balaca adacıq, ətrafda ucsuz-bucaqsız qumlu çöllər. Ağlına gətirmir ki, bütün ömrünü bu cəhənnəmdə keçirməli olacaq. Siftə vaxtlar Qazanqap ona dayaq durur, gənc ailəyə sağmal dəvə amanat verir, dəvənin erkək balasını onlara bağışlayır. Köşəyin adını Qaranər qoyurlar, Qazanqapın, Yedigeyin balalarıyla baş-başa o da gün-gün, saat-saat böyüyür. Hərçənd “baş-başa” sözü burada yerinə düşmür, çünki dəvənin zamanı insanın zamanından yeyin axır.

Bu müddətdə Qazanqapla Yedigey də canbir-qəlb dost olurlar, kürək-kürəyə verib amansız səhrada otuz il güzəran sürürlər, övlad böyüdürlər, bu dünyanın mənzil başına tələsən qatarlarını gündoğandan günbatana, günbatandan gündoğana ötürürlər. Özlərisə heç yana tələsmirlər, zamanın sıfır nöqtəsində dünyanın sükunətinə qarovul çəkirlər. İndi artıq ömrünün qırx dörd ilini Boranlı razyezdindən axan zaman çaylarına baxa-baxa axına düşməmiş, hərəkət sellərinə dala-dala sudan quru çıxmış müdrik, xeyirxah Qazanqapın hüzn evində əbədi sükuta dalan vaxtıdır. Dostu Yedigeyə naymanların dədə-baba məzarlığı sayılan Ana-Beyit qəbiristanlığında dəfn olunmağı vəsiyyət eləyib. Boranlıdan Ana-Beyitə azı otuz kilometr məsafə var.

***

Dəfnə hazırlıq görmək üçün növbəsini təhvil verib evə tələsən Yedigeyin ayağının altında qəfildən yer titrəyir: “Elə bu andaca havada bir təlatüm əmələ gəldi. Bu, cəbhədə adamın ayağının altında yer titrədən güclü partlayış dalğasına bənzədi. Gözünün qabağındaca çölün o başında, deyilənlərə görə, Sarı-Özək kosmodrumunun yerləşdiyi tərəfdən göyə nəsə od-alov qasırğasına bürünmüş bir şey dikəldi... Bu gecə kosmik raketin fəzaya uçmağının şahidi olmuş Boranlı Yedigey bilmirdi, bilə də bilməzdi ki, bu uçuş təcili qəza uçuşu idi, bu gecə kosmonavtla birlikdə fəzaya uçan kosmik gəmi heç bir raport verilmədən, təntənə-filan olmadan, jurnalistlərin iştirak eləmədiyi bir şəraitdə, Amerika-Sovet proqramına əsasən il yarımdan bəri şərti olaraq “Tramplin” adlandırılmış orbitdə, “Paritet” kosmik stansiyasında baş vermiş fövqəladə hadisəylə əlaqədar idi... “Paritet” on iki saatdan artıqdı ki, Birləşmiş İdarə Mərkəzi “Konvensiya”dan göndərilən siqnallara cavab vermirdi. Birləşməyə gedən gəmilərin də siqnalları cavabsız qalırdı...”

**davamı növbəti sayımızda**



*F.Uğurlu*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Bakmətbuat” MMC - 0124314313
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**






# 44 günlük müharibədə...

## Ordumuz yeni hərbi düşüncənin simvolunu yaratdı!

44 günlük Vətən müharibəsi təkcə Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə deyil, həm də müasir hərb tarixində yeni yanaşmaların tətbiqi ilə yadda qaldı. Azərbaycan Ordusunun döyüş taktikası və əməliyyat planlaması qısa müddətdə beynəlxalq hərbi ekspertlərin, analitik mərkəzlərin və dünya mediasının diqqətini cəlb etdi. Bu müharibə göstərdi ki, müasir dövrdə qələbə yalnız say üstünlüyü ilə deyil, ağıllı strategiya və peşəkar kadrlarla qazanılır.

Azərbaycan Ordusunun əsas üstünlüklərindən biri dəqiq planlaşdırılmış və mərhələli hücum taktikası idi. Döyüşlərdə klassik mövqe müharibəsindən imtina edilərək, çevik manevrlərə və lokal üstünlük yaratmağa əsaslanan strategiya seçildi. Xüsusilə, çətin relyefə malik ərazilərdə ordunun sürətli irəliləyişi, düşmənin müdafiə xətlərinin yarılması hərbi baxımdan nümunə kimi dəyərləndirildi.

### Dünya hərb tarixində yenilik

Mövzunu “Yeni Azərbaycan”a şərh edən hərbi ekspert Emin Həsənli bildirib ki, 44 günlük Vətən müharibəsinin dünya hərb tarixində özünəməxsus yeri var: “Bu müharibə Azərbaycan tarixinə qızıl hərflərlə yazılıb. Bir sözlə, İkinci Qarabağ müharibəsi həm dünya hərb tarixinə böyük yeniliklər gətirdi, həm də müharibəyə baxışı dəyişdi”.

### Klassik döyüş taktikası ilə...

E.Həsənli bildirib ki, Azərbaycan Ordusu İkinci Qarabağ müharibəsində klassik və müasir döyüşü bir yerdə apardı: “Şuşa uğrunda mübarizə klassik döyüş taktikası ilə keçdi. Belə ki, bu döyüşlər yüngül silahlarla sıldırım qayalardan keçmək, şəhərin tarixi abidələrini qorumaq baxımından mühüm idi. Ağır texnikadan istifadə edilmədi, qəhrəman əsgərlərimiz məhz yüngül silahlarla Şuşada döyüşlər apardılar və mühüm qələbə əldə etdilər.

44 günlük müharibə eyni zamanda orduda uzun illər aparılan islahatların nəticəsi idi. Müasir silahlanma, NATO standartlarına uyğun təlimlər, peşəkar zabit heyəti və Ali Baş Komandanın siyasi iradəsi bu qələbənin əsas sütunlarını təşkil etdi. Əsgər və zabitlərin yüksək mənəvi ruhu, vətənpərvərlik hissi isə bütün taktiki üstünlükləri tamamlayan əsas amil oldu”.


Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması” istiqaməti üzrə hazırlanmışdır


### Ordumuzun şücaəti xarici ölkə institutlarının diqqətində

Ekspertin sözlərinə görə, 44 günlük müharibədə ordumuzun istifadə etdiyi döyüş taktikaları hətta xarici ölkə institutları tərəfindən öyrənilməkdədir: “Çünki bu zəfərin əldə edilməsində dünya hərb elminin istifadə etmədiyi üsullardan istifadə olundu. Burada Azərbaycan ordusunun göstərdiyi hünər həmin hərbi institutların diqqətini cəlb etdi və onu öyrənməyə qərar verdilər. Hesab edirəm ki, bu zəfər ayrı-ayrı istiqamətlərdə ayrıca mövzu kimi işlənməlidir. Məsələn, Azərbaycan Ordusunun malik olduğu hərbi texnika, yaxud da Azərbaycan əsgərinin savaş zamanı, xüsusilə, Şuşa şəhərinin alınması ilə bağlı həyata keçirdiyi əlbəyaxa döyüşlər... Bu döyüşdə Azərbaycan Ordusu özündən altı-yeddi dəfə artıq və dişinə qədər silahlanmış düşməni əlbəyaxa döyüş taktikası ilə məğlub etdi. Bu döyüş əlbəttə, ayrıca öyrənilməlidir”.

### Düzgün strategiya və xalq birliyi

Ekspert həmçinin qeyd edib ki, Azərbaycan Ordusu Vətən müharibəsində Cenevrə Konvensiyasının müddəalarına əməl edərək mülki əhali və əsrlərlə davranışı zamanı bütün dünyanın diqqətindən yayınmadı: “Yeganə müharibə oldu ki, xalq-dövlət-ordu prinsipi ilə vahid həmrəylik var idi. Bir sözlə, müharibə Azərbaycan və Ermənistan arasında olan fərqi bir daha dünyaya nümayiş etdirdi. Azərbaycan burada yaşayan bütün xalqların tarixinə, dininə və mədəniyyətinə hörmət edən, Ermənistan isə monoetnik dövlətdir. Tarixi faktların saxtalaşdırılması rəsmi İrəvanın dövlət siyasətidir.

44 günlük Vətən müharibəsi Azərbaycan Ordusunu regionda deyil, dünya miqyasında müasir və effektiv hərbi qüvvə kimi tanıtdı. Bu müharibə sübut etdi ki, düzgün strategiya, texnoloji üstünlük və xalqın birliyi bir araya gəldikdə, ən mürəkkəb problemlər belə həllini tapa bilər. Azərbaycan Ordusunun tətbiq etdiyi taktika artıq təkcə qələbənin deyil, yeni hərbi düşüncənin simvoluna çevrilib.

***Yeganə***

# Nazirlikdən əhaliyə müraciət!

## Qriplə bağlı mühüm xəbərdarlıq edildi...

Payız-qış mövsümü yoluxucu xəstəliklərin artdığı dövrdür. Məlumdur ki, bu müddət ərzində qrip və kəskin respirator virus infeksiyalarına yoluxmaq daha asandır. Səhiyyə Nazirliyi mövsümi xəstəliklərlə bağlı əhaliyə müraciət edib. Müraciətdə son günlərdə havaların soyuması ilə əlaqədar olaraq ölkə ərazisində kəskin respirator virus infeksiyalarının, o cümlədən qripin yayılmasında mövsümi artımın müşahidə olunduğu qeyd edilib.

### Bu şəxslər risk qrupuna daxildir

Bildirilib ki, hava şəraitinin dəyişməsi, insanların qapalı məkanlarda daha çox vaxt keçirməsi və immun sisteminin zəifləməsi bu infeksiyaların geniş yayılmasına şərait yaradır. Hazırda əhali arasında ən çox rast gəlinən kəskin respirator virus infeksiyaları adətən yüksək hərarət, öskürək, boğaz ağrısı, ümumi halsızlıq və bəzən ağırlaşmalarla müşayiət olunur. Risk qrupuna daxil olan şəxslər - yaşlılar, xroniki xəstəliyi olanlar, hamilə qadınlar və uşaqlar üçün bu infeksiyalar daha ağır fəsadlara səbəb ola bilər.

### Peyvənd yoluxma riskini azaldır

Nazirlikdən qeyd olunub ki, kəskin respirator virus infeksiyalarına qarşı mübarizədə profilaktik tədbirlər, xüsusilə peyvəndlənmə mühüm rol oynayır. Səhiyyə Nazirliyi tərəfindən profilaktik və əks-epidemik tədbirlərin gücləndirilməsi məqsədilə qrip əleyhinə “Sanofi Pasteur” (Fransa) şirkətinin istehsalı olan tam təhlükəsiz və yüksəkkeyfiyyətli vaksin preparatları ölkəyə gətirilib. Qripə qarşı peyvənd infeksiyaya yoluxma riskini azaltmaqla yanaşı, xəstəliyin ağır keçməsinin və ağırlaşmaların qarşısının alınmasında effektiv vasitə hesab olunur.



Bununla yanaşı, vətəndaşlara şəxsi gigiyena qaydalarına riayət etmək, əlləri mütəmadi olaraq yumaq, qapalı və sıx məkanlarda tibbi maskalardan istifadə etmək, xəstəlik əlamətləri müşahidə olunduqda evdə qalmaq və özünümüalicədən çəkinərək vaxtında həkimə müraciət etmək tövsiyə olunur.

Əhalinin sağlamlığının qorunması və respirator xəstəliklərə yoluxma hallarının azaldılması məqsədilə Səhiyyə Nazirliyi vətəndaşları məsuliyyətli davranmağa, xüsusilə risk qruplarına daxil olan şəxsləri mövsümi qripə qarşı peyvənd olunmağa çağırır.

Qeyd edək ki, qripə qarşı vaksinasiya tam ödənişsizdir, yaşayış və ya iş yeri üzrə əhaliyə ambulator-poliklinik xidmət göstərən dövlət tibb müəssisələrində aparılır.

İnfeksionist-həkim Mərdan Əliyev “Yeni Azərbaycan”a açıqlamasında bildirib ki, qrip viral infeksion xəstəlikdir və onun ağırlığı, təhlükəliliyi fəsadları ilə özünü büruzə verir. Onun sözlərinə görə, qrip sətəlcəm, bronxit, sinuzit, otit və digər xəstəliklər kimi ciddi fəsadlara səbəb ola biləcək ağır intoksikasiya ilə müşayiət olunur, mövcud xroniki patologiyanın kəskinləşməsinə səbəb olur: “Xəstəliyin ağır gedişinin və fəsadlaşmasının yüksək riski olan qruplar var. Buraya hamilə və doğuşdan sonrakı 2

### 59 ayadək olan körpələr, 5 yaşadək uşaqlar...

həftəyədək olan zahı qadınlar, 59 ayadək olan körpələr, 5 yaşadək olan uşaqlar, yaşı 65-dən yuxarı olan şəxslər, xroniki xəstəlikləri olan insanlar və immuniteti zəif olan şəxslər aiddir. Təmasların sayı çox olarsa, yoluxma ehtimalı da yüksək olur. Bu baxımdan nazirlik tərəfindən ümumi vəziyyətlə əlaqədar müvafiq xəbərdarlıqlar edilir”.

### Qripin hansı fəsadları ola bilər?

İnfeksionistin sözlərinə görə, qripin fəsadları iki qrupa bölünür: “Birinci qrupa aid fəsadlar bilavasitə qripin gedişi ilə əlaqədar olur. Buraya meningit, meningoensefalit, toksik şok aiddir. İkinci qrup ağırlaşmalar isə xəstəliyin sonrakı 4-5-ci günündə meydana çıxır və adətən bakterial infeksiyanın qoşulması ilə əlaqədar olur.

Ən təhlükəli və tez-tez baş verən ağırlaşma pnevmoniyadır. Pnevmoniya həm ilkin olaraq, həm də yuxarı tənəffüs yollarının virus infeksiyalarından sonra da inkişaf edə bilər. İkincili pnevmoniyaya ən çox səbəb olan bakterial infeksiyalardır. Belə pnevmoniya xəstəliyin birinci həftəsinin sonunda - ikinci həftənin əvvəlində inkişaf edir.

Qripin digər təhlükəli ağırlaşması kəskin respirator distres sindromudur. Bu ağırlaşmanın fonunda ciddi tənəffüs çatışmazlığı yaranır. Həmçinin qripin ağırlaşmaları otit, sinuzit, qlomerulonefrit, irinli meningit və sepsis kimi ciddi fəsadlara səbəb ola bilər”.

***Yeganə BAYRAMOVA***



# Dünyada hər 5 yeniyetmədən biri qidalanma problemi yaşayır

“BioTechUSA” şirkəti yeniyetmələr arasında əqli və fiziki sağlamlıq barədə məlumatlılığı artırmaq məqsədi daşıyan “Uşaqların sağlamlığı naminə birlikdə” pilot proqramını başa çatdırıb.

AZƏRTAC xəbər verir ki, təşəbbüsdə 160-dan çox məktəbli iştirak edib, onlar interaktiv formatda - kvestlər, kulinariya ustad dərsləri və teatr tamaşaları vasitəsilə qidalanma pozğunluqları və özünəqiymət məsələlərini müzakirə ediblər.

Proqram 2023-cü ildəki beynəlxalq tədqiqatın məlumatları əsasında aparılıb. Bu tədqiqata uyğun olaraq uşaqların və yeniyetmələrin təxminən 22 faizi düzgün qidalanmır, dünyada hər beş yeniyetmədən biri isə qidalanma problemi yaşayır. Ekspertlər bunu sosial media təzyiqi və xarici görünüşdən narazılıqla əlaqələndirirlər.

Proqram çərçivəsində “BioTechUSA”, həmçinin çəki problemi olan uşaqlar üçün art-terapiyaya Macarıstan Mosoly Fonduna təxminən 50 min avro ianə edib. Şirkət təşəbbüsü 2026-cı ildə də davam etdirmək niyyətindədir.

## Elan

Yeni Azərbaycan Partiyası tərəfindən Ələkbərova Xanım Baba qızına verilmiş 759648 nömrəli üzvlük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4826**
**Sifariş: 2616**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova